QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 208 (5439) 15 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilib

*Prezident İlham Əliyev yubiley mərasimində iştirak edib*




Səh 2

Azərbaycan ilə Çin arasında əlaqələr genişlənir

6

Naxçıvan Ali Məclisinin sədri Rumıniya səfiri ilə görüşüb

6

Milli Məclisdə Azərbaycan-Çin münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

7

Yeni Azərbaycan Partiyasının yubileyi münasibətilə YAP Səbail rayon təşkilatı Cocuq Mərcanlıya səfər təşkil edib

11

YAP Gənclər Birliyi hazırda 270 000-dən artıq gənci ətrafına toplayıb

6

Sergey Jeleznyak: Rusiya ilə Azərbaycanın dostluğunu pozmaq istəyənlərin cəhdləri əbəsdir

7

9
"Qida Təhlükəsizliyi Komissiyasının fəaliyyəti nəticəsində daxili bazar keyfiyyətli ərzaqla təmin olunacaq"


13
Ermənistan 2018-ci ilə boş büdcə ilə gedir


16
Ronaldu mövsümün sonunda "Real Madrid"dən ayrılacaq


# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilib

## *Prezident İlham Əliyev yubiley mərasimində iştirak edib*




***Noyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı mərasimdə nitq söylədi.***

> “Azərbaycan xalqı o vaxt bir daha öz böyüklüyünü, müdrikliyini göstərərək Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. 1993-2003-cü illər tariximizdə sabitlik, islahatlar və inkişaf illəri kimi qalacaq.”

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

-Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri.

Əziz dostlar.

Mən sizi və Yeni Azərbaycan Partiyasının bütün üzvlərini partiyamızın qarşıdan gələn 25-ci ildönümü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Partiyamızın bütün üzvlərinə cansağlığı, yeni uğurlar arzulayıram.

İyirmi beş il əvvəl ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu, böyük tarixi hadisə idi. Ondan təqribən bir ay əvvəl bir qrup vətənpərvər insan - məşhur 91-lər Heydər Əliyevə müraciət ünvanlamışdılar. Ulu Öndər müraciətə müsbət cavab verərək, yeni yaradılacaq partiyaya rəhbərlik etməyə hazır olduğunu bildirmişdir və partiyanın təsis konfransının keçirilməsi haqqında qərar qəbul edilmişdir. Təbii ki, təsis konfransı Bakıda keçirilməli idi. Ancaq o vaxt Azərbaycanda hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat hakimiyyəti buna imkan vermədi. Baxın, özünü demokrat adlandıran dairələr, hakimiyyət imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı Bakı şəhərində keçirilsin. Belə olan halda 500-dən çox nümayəndə, bütün bölgələri təmsil edən vətəndaşlar Naxçıvana gəldilər və Ulu Öndərin rəhbərliyi ilə partiyamızın təsis konfransı keçirildi.

Bu, doğrudan da tarixi bir hadisə, müasir Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi idi. O vaxt 91 vətənpərvər insan bu tarixi missiyanı öz üzərinə götürüb Heydər Əliyevə müraciət göndərmişdi. Onların bu əməyi Azərbaycan tarixində öz layiqli yerini tutmuşdur və partiyamızın yaradılması ölkəmizdə gedən xoşagəlməz proseslərin gələcəkdə qarşısının alınmasında xüsusi rol oynamışdır. Bu müraciətin səbəbləri də aydındır. Çünki ulu öndər Heydər Əliyev 1970-1980-ci illərdə gördüyü işlərə, Azərbaycana verdiyi töhfələrə görə xalqımızın böyük sevgi və rəğbətini, dəstəyini qazanmışdır. Sovet dönəmində ən geridə qalmış respublikalardan biri olan Azərbaycan məhz onun dövründə ən qabaqcıl respublikaya çevrilmişdir. Onun 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində fəaliyyəti nəticəsində respublikada böyük quruculuq işləri aparılmışdır və Azərbaycan, sözün əsl mənasında, hərtərəfli şəkildə inkişaf edirdi. Ondan sonrakı dövrdə Moskvada yüksək vəzifədə çalışarkən həmişə Azərbaycana böyük diqqət və qayğı göstərmişdir.

1990-cı illərin əvvəllərində - xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik göstərmiş və qanlı 20 Yanvar hadisələrini Sovet İttifaqının mərkəzində, Moskva şəhərində pisləmişdir. Mən o günü yaxşı xatırlayıram. Mən fəxr edirəm ki, o gün atamla birlikdə idim və Heydər Əliyevin o qətiyyətli çıxışı, Vətəninə, xalqına olan bağlılığı bütün Azərbaycan xalqına bir daha göstərdi ki, o, xalqa bağlı olan böyük bir liderdir.

Ondan sonra Naxçıvanda işləyərkən müstəqilliyə gedən yolu açdı. Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını dövlət bayrağı elan etmişdir və atılmış digər addımlar ona xalqın məhəbbətini daha da artırmışdır. Bununla bərabər, o vaxt Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində ölkə demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü, qeyri-qanuni silahlı birləşmələr küçələrdə əli silahlı gəzirdilər, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda əlbəttə ki, xalq öz ümidini Heydər Əliyevə bağlamışdı. Ona görə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. Partiya yaradılandan sonra bütün cəmiyyətimizdə böyük dəstəyə malik oldu.

Bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir, onların 40 faizi gənclərdir. Yəni, bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir.

*Ardı Səh. 3*

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilib

*Prezident İlham Əliyev yubiley mərasimində iştirak edib*



Əvvəli Səh. 2

O illərdə isə ölkəmizin gələcək inkişafı o qədər də aydın deyildi. Çünki Yeni Azərbaycan Partiyası noyabr ayında yaradılmışdı. Ondan sonra ölkədə dərin böhran daha da kəskinləşdi, 1993-cü ilin yay aylarında AXC-Müsavat cütlüyü ölkəmizdə qardaş qanı axıtdı, vətəndaş müharibəsi başlamışdı və bunun nəticəsində torpaqlarımızın işğalı prosesi davam etmişdir.

Azərbaycan xalqı o vaxt bir daha öz böyüklüyünü, müdrikliyini göstərərək Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. 1993-2003-cü illər tariximizdə sabitlik, islahatlar və inkişaf illəri kimi qalacaq. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. O illərdə bizim milli ideologiyamız - azərbaycançılıq ideologiyası təqdim edildi və xalq tərəfindən bəyənildi. O illərdə Azərbaycan beynəlxalq təcriddən çıxa və Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilmişdir.

Biz beynəlxalq aləmdə fəal siyasət apararaq Azərbaycanı tanıtmaq istiqamətində böyük işlər görə bildik. İqtisadi islahatlar, onların təməli məhz o illərdə qoyulmuşdu. O vaxt ölkə iqtisadiyyatının inkişafı üçün xarici sərmayənin cəlb edilməsi əsas şərt idi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bunu da bacardı. O illərdə Azərbaycana cəlb olunan xarici sərmayə demək olar ki, həmin dövrdə və hətta bu gün də ölkəmizin iqtisadi inkişafını şərtləndirən əsas amillərdən biridir.

> "Bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir, onların 40 faizi gənclərdir. Yəni, bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır."

Bir sözlə, 1993-2003-cü illərdə Azərbaycanda aparılmış böyük işlər ölkəmizi gücləndirdi. Azərbaycan bütün çətin sınaqlardan şərəflə çıxa bilmişdir və bugünkü sürətli inkişafın da təməli o illərdə qoyulmuşdur.

Ondan sonrakı 14 il ərzində Azərbaycan ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq uğurla, inamla inkişaf edib. Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən bu gün son 14 il ərzində görülmüş işləri sadalamaq istəmirəm. Görülən işlər göz qabağındadır. Onu deyə bilərəm ki, Azərbaycan bütün istiqamətlər üzrə konseptual yanaşma və proqramlar əsasında çox böyük tarixi uğurlara imza atıb. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Təkcə BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilməyimiz faktını qeyd etmək kifayətdir ki, beynəlxalq aləm görsün Azərbaycana dünya miqyasında nə qədər böyük rəğbət və dəstək var.

Bu 14 il ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb. İqtisadiyyat üç dəfədən çox artıb, yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, ondan da az səviyyədədir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 100 faizini təşkil edir, yəni, ona bərabərdir.

Azərbaycan beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Yəni, bu rəqəm deməyə əsas verir ki, bizim iqtisadi siyasətimiz mükəmməldir. Bu, ölkəmizin ümumi inkişafında, insanların rifah halının yaxşılaşmasında öz əksini tapır. Energetika, nəqliyyat sahələrində görülmüş işlər haqqında deyə bilərəm ki, son vaxtlar bir çox yeniliklər baş vermişdir. Yəni, bir sözlə, Azərbaycan bütün sahələr üzrə, o cümlədən hərbi-texniki sahədə böyük uğurlara nail ola bilibdir. Bu uğurların təməli 1992-ci ilin noyabrında qoyulub. O vaxt Yeni Azərbaycan Partiyasının yaradılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini qoruya və möhkəmləndirə bilib. Bu gün bütün dünya görür ki, Azərbaycan özünə güvənən, öz daxili resurslarına arxalanan, müasir ənənələrə bağlı olan güclü dünyəvi dövlətə çevrilib.

Bu gün qarşıda duran bəzi vəzifələr haqqında danışmaq istərdim. Son 25 il ərzində partiyamız uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq.

Daxili siyasətlə bağlı qarşıda duran vəzifələrə gəldikdə, Azərbaycanda bundan sonra da sabitlik təmin ediləcəkdir. Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur.

**Ardı Səh. 4**

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilib

## *Prezident İlham Əliyev yubiley mərasimində iştirak edib*




> “Son 25 il ərzində partiyamız uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib”

**Əvvəli Səh. 3**

Azərbaycanda sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır. Məhz xalq-iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Bu vəhdət imkan verir ki, biz uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da biz elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin. Mən şübhə etmirəm ki, Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır.

Azərbaycanda bundan sonra da bütün azadlıqlar təmin ediləcəkdir. Biz demokratik cəmiyyət qururuq. Yeni Azərbaycan Partiyasının yaradılması demokratiyanın təzahürü idi. Buna baxmayaraq, o vaxt hakimiyyəti dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat cütlüyü ən antidemokratik addımlar atmağa hazır idi ki, bu partiyaya əngəllər törətsin. Ancaq Yeni Azərbaycan Partiyası o vaxt ölkədə siyasi sistemin yaradılmasına da çox böyük töhfə vermişdir. Bu gün biz demokratiya yolu ilə gedirik. Azərbaycanda bütün azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı tam şəkildə təmin edilir. Lakin sərbəst toplaşma azadlığından istifadə etməyə çalışan, özünü müxalifət adlandıran bir dəstə hesab edir ki, onlara qarşı hansısa süni əngəllər törədilir. Halbuki bu, qətiyyən belə deyil, o uğursuz mitinqlərin səbəblərini onlar özlərində axtarmalıdırlar. Xalq o ünsürlərə çoxdan yox deyib. Onlar üçün Azərbaycanın siyasi səhnəsində yer yoxdur. Ona görə yox ki, biz onlara maneçilik törədirik. Ona görə ki, onların, necə deyərlər, kitabı çoxdan bağlanıb. Qeyri-konstruktiv hərəkətləri, aqressiv davranışları onlara xalqın nifrətini birə-on artırır.

Xüsusilə indiki şəraitdə, internet dövründə nəyisə gizlətmək mümkün deyil. Azərbaycan xalqı çox yaxşı bilir ki, bu gün özünü müxalifət adlandıran bir dəstə xaricdən idarə olunur. Onlara xaricdən komandalar verilir. O komandalar nəticəsində müəyyən dövrdə hərəkətə keçirlər, fəallaşırlar. Sonra da görəndə ki, mitinqlərinə min nəfərdən az adam gəlir, necə deyərlər, suyu süzülə-süzülə yenə kənara çəkilirlər. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı xaricdən idarə olunan ünsürlərin - beşinci kolonun ölkəmizdə hansısa mövqelərə sahib olmasına heç vaxt imkan verməyəcək.

Metodologiya da çox bəsitdir, çox sadədir. Xaricdə bir yalan uydurulur, bir şərböhtan kampaniyasına rəvac verilir. Ondan sonra bu yalan, böhtan xarici mətbuatda dərc edilir. Daha sonra bunun əsasında da müəyyən tərpənmə, - mən canlanma deməzdim, - müşahidə olunur. Bu tərpənmə bir-iki mitinqdə özünü göstərir. Həmişə olduğu kimi, axırıncı mitinq onun təşkilatçıları üçün məyusedici olur, bununla da məsələ qurtarır.

Yəni, bu gün siyasi mübarizəni bu formada aparmaq istəyən dəstəyə, - bunlara heç qüvvə də demək olmaz, - heç nə dərs olmur. Vaxt dəyişir, insanlar dəyişir, Azərbaycan dəyişir, siyasi mübarizə metodları dəyişir, onlar isə hələ də köhnə təfəkkürlə yaşamaq istəyirlər və öz mənasız həyatlarını bu işlərə sərf edirlər.

O ki qaldı bütün azadlıqlara, Azərbaycanda heç bir məhdudiyyət yoxdur. Sərbəst toplaşma azadlığı, söz azadlığı, bütün digər azadlıqlar Azərbaycanda tam şəkildə təmin edilir və təmin ediləcəkdir. Demokratiyaya bizim bağlılığımız hansısa təşkilata xoş gəlmək üçün deyil, biz bunu şüurlu surətdə edirik ki, ölkəmiz hərtərəfli şəkildə inkişaf etsin. Çünki iqtisadi islahatlar siyasi islahatlarla paralel aparılmalıdır.

Xarici siyasətlə bağlı. Bizim xarici siyasətimiz həyatda özünü təsdiqləyib və bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Biz növbəti illərdə də müstəqil xarici siyasət aparacağıq, biz bunu indi də aparırıq. O qədər də böyük olmayan ölkələr üçün müstəqil xarici siyasət aparmaq heç də asan deyil, ancaq çox şərəflidir. Bəzi ölkələr başqa yol seçirlər, bəzi ölkələr başqa böyük ölkələrin qanadının altında yer alırlar. Bu, bəlkə daha rahat yoldur. Ancaq bizim yolumuz şərəfli yoldur, ləyaqətli yoldur, bu, müstəqillik yoludur. Eyni zamanda, bu, uğur gətirən yoldur. Çünki həyat və Azərbaycanın dünya miqyasındakı indiki rolu göstərir ki, bu, yeganə düzgün siyasətdir. Müstəqil siyasət bundan sonra da aparılacaq. Bu siyasətin əsas prinsipi Azərbaycan dövlətinin və Azərbaycan xalqının milli və dövlət maraqlarıdır. Bu, bizim üçün əsas şərtdir. Harada ki, bu maraqlar təmin edilirsə, biz əlbəttə, bu təşəbbüslərə qoşuluruq. Harada ki, görürük maraqlarımıza ziddir, əlbəttə, Azərbaycan o təşəbbüslərin iştirakçısı ola bilməz.

Hesab edirəm ki, hər bir ölkə üçün qonşularla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Biz qonşu ölkələrimizlə qarşılıqlı hörmət və inam əsasında çox gözəl və işgüzar münasibətlər qura bilmişik. 30 oktyabr-1 noyabr tarixlərində dörd qonşu ölkənin liderləri ilə mənim görüşlərim olubdur və bu 2-3 gün ərzində həm “Şərq-Qərb”, həm “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin işə salınması və inkişafı istiqamətində çox önəmli hadisələr qeydə alınıbdır. Əgər qonşu ölkələrlə bizim gözəl münasibətlərimiz olmasaydı, əlbəttə, bu layihələr haqqında heç danışmağa da dəyməzdi. Bu gün Azərbaycan haqlı olaraq Avrasiya qitəsində nəqliyyat mərkəzlərinin birinə çevrilmək əzmindədir və biz bunu edirik. Nəqliyyat sahəsində tranzit ölkə statusunu almaq üçün mütləq qonşularla isti münasibətlərin olmalıdır. Ona görə bu, xarici siyasətimizin əsas prioritetidir və çox sevindirici haldır ki, qonşu ölkələrlə bizim heç bir problemimiz yoxdur.

Biz bundan sonra da beynəlxalq təşkilatlarda fəal iştirak edəcəyik. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı bizim üçün əsas prioritet təşkil edir. Biz 15 ildən çoxdur ki, Avropa Şurasının fəal üzvüyük və bir çox tədbirlər bu təşkilatın xətti ilə keçirilmişdir. Ancaq son vaxtlar Avropa Şurasının baş katibinin fəaliyyəti nəticəsində bu qurum ilə Azərbaycan arasında süni böhran yaradılmışdır. Bu böhranın təşəbbüskarı biz deyilik. Biz, sadəcə olaraq, bizə qarşı aparılan riyakar və ədalətsiz siyasətlə bağlı adekvat addımlarımızı atırıq. Həmişə bizə olan hücumları heç vaxt cavabsız qoymamışıq. Ona görə hesab edirəm ki, bizim adekvat cavabımız da yerində və vaxtında atılan addımdır. Hesab edirəm ki, ümumiyyətlə, Avropa Şurası kimi tanınmış beynəlxalq təşkilat hər hansı bir fərdin uğursuz ambisiyalarının qurbanına çevrilməməlidir. Ümid edirəm ki, bu təşkilatla bağlı olan məsələlər də öz həllini tapacaq. Biz bunu istəyirik, ümid edirik. Əgər bu böhran dərinləşsə, onda əlbəttə ki, Azərbaycan öz seçimində tam azad olacaqdır. Biz üzv olduğumuz bütün təşkilatlara könüllü şəkildə daxil olmuşuq və könüllü şəkildə də çıxa bilərik. Heç kim bizi zorla hər hansı bir təşkilatda saxlaya bilməz.

İqtisadi sahə ilə bağlı. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində bundan sonra da ardıcıl siyasət aparılacaq. Bu siyasət öz nəticələrini verir. Bu gün neftdən asılılıq azalır. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bundan sonra uzun illər ərzində iqtisadiyyatımızın aparıcı qüvvəsi olacaqdır. Qeyri-neft sektorunda isə xüsusilə bu il çox ciddi islahatlar aparılıb və ixracımız da kəskin artıb, doqquz ayın nəticələri çox müsbətdir. Kənd təsərrüfatı, qeyri-neft sektoru, qeyri-neft sənayesi sürətlə artır. Bizim valyuta ehtiyatlarımız artır, növbəti illərdə də artmalıdır. Valyuta ehtiyatlarımız bu ilin doqquz ayında 4,5 milyard dollar artıbdır.

***Ardı Səh. 5***

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilib

## *Prezident İlham Əliyev yubiley mərasimində iştirak edib*

Əvvəli Səh. 4

Neftin qiymətinin aşağı səviyyədə olmasını nəzərə alsaq, bu, çox böyük nailiyyətdir. Bu nailiyyət, eyni zamanda, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir. Bir çox ölkələr üçün bizim maliyyə vəziyyətimiz əlçatmazdır. Təkcə onu demək kifayətdir ki, xarici dövlət borcumuz 20 faizin altındadır və valyuta ehtiyatlarımız ümumi daxili məhsula bərabərdir. Ona görə növbəti illərdə iqtisadi sahədə, regional inkişaf sahəsində, əlbəttə, islahatlar dərinləşəcək və bu, bizə imkan verəcək ki, qeyri-neft sektoru hesabına daha da böyük mənfəət əldə edək.

Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik olmayacaq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Beynəlxalq hüququn normaları tam tətbiq edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra olunmalıdır, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir. Bu, prinsipial mövqedir. Bu mövqe tarixə və beynəlxalq hüquqa əsaslanır. Çünki Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Çünki bütün dünya, bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ona hörmətlə yanaşır. Dağlıq Qarabağ isə Azərbaycanın ayrılmaz hissəsidir. Bu il bunu təsdiqləyən növbəti hadisə baş vermişdir. Yenə də Ermənistanın ağılsızlığı nəticəsində Dağlıq Qarabağda keçirilmiş qanunsuz referendum bütün dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Həm qonşu ölkələr, Minsk qrupuna həmsədr olan ölkələr, Avropa İttifaqı və digər təşkilatlar bu referendumun nəticələrini tanımadılar. Tanımamaqla bir daha təsdiqlədilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.



> *“Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir.”*

Xocalı soyqırımının tanıdılması ilə bağlı ardıcıl səylər bundan sonra da davam etdiriləcək. Beş il bundan əvvəl partiyamızın 20 illik yubileyində mən qeyd etmişdim ki, artıq üç ölkə Xocalı soyqırımını rəsmən tanıyıb. İndi bu ölkələrin sayı 10-dan çoxdur - cəmi beş il ərzində. Ona görə, bu istiqamətdə də ardıcıl siyasət aparılacaqdır.

Bununla paralel olaraq, biz hərbi gücümüzü də artıracağıq. Buna böyük dərəcədə nail ola bilmişik. Beynəlxalq reytinqlərə görə, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bundan sonra da ordumuza nə qədər vəsait, texnika lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaq. Hərbi gücümüz, eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayacaq və oynayır. Aprel döyüşləri, torpaqlarımızın bir hissəsinin, xüsusilə, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsinin işğalçılardan azad edilməsi ordumuzun gücünü bütün dünyaya göstərmişdir.

Ermənistan yenə də çalışır ki, aprel döyüşləri haqqında təhrif olunmuş versiyasını dünya ictimaiyyətinə təqdim etsin, ancaq bu, çox gülünc cəhdlərdir. Sadəcə onu demək kifayətdir ki, bu gün biz onların işğal edilmiş torpaqlarda vaxtilə qazdıqları səngərlərdə oturmuşuq və o səngərlərdən böyük bir əraziyə nəzarət edirik. Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, Azərbaycan xalqının, əsgərinin gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dövləti və xalqı heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyünü bərpa edəcək.

Ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan iki istiqamət üzrə - energetika və nəqliyyat sahələrinin gələcək inkişafı ilə bağlı bizim çox aydın hədəflərimiz var. Neft-qaz sahəsində bütün vəzifələr icra edildi. “Azəri-Çıraq-Günəşli” kontraktının müddəti uzadıldı. “Cənub Qaz Dəhlizi”nin icrası da uğurla gedir. Əminəm ki, gələn il biz TANAP layihəsinin açılışını qeyd edəcəyik.

Bütövlükdə “Cənub Qaz Dəhlizi”nin tamamlanması 2020-ci ildə nəzərdə tutulur. Mən burada da heç bir problem görmürəm. Sadəcə olaraq biz qrafik üzrə getməliyik. Avropa İttifaqı da Azərbaycanı bu layihənin həyata keçirilməsində aparıcı ölkə kimi tanıyır. Doğrudan da bizim bu layihənin icrasında rolumuz danılmazdır və aparıcıdır.

Nəqliyyat sahəsində. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra əsas səylərimiz onunla bağlı olacaq ki, biz yüklərin həcmini artıraq. İndi biz bu məsələ üzərində çalışırıq. Bununla yanaşı, “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılmalıdır. Biz öz ərazimizdə demək olar ki, bütün işləri gördük. İndi bu layihənin tamamlanması üçün əlavə texniki və maliyyə resurslarımızı ortaya qoymağa hazırıq. Beləliklə, bu iki layihə Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çevirəcək. Bu, bizim həm siyasi, həm iqtisadi maraqlarımızın təmin edilməsində çox mühüm rol oynayacaq.

Azərbaycanda müasir texnologiyaların inkişafı da gündəlikdə duran məsələdir. Üçüncü süni peykin orbitə çıxarılması da gündəlikdə duran məsələlərdən biridir.

Gələcək fəaliyyətimizlə bağlı əlbəttə ki, hər bir sahə üzrə konseptual yanaşma var. Mən əgər bu gün bütün planlar haqqında danışsam, bir neçə saat vaxt lazım olacaq. Mən bu gün sizin və ictimaiyyətin diqqətinə gələcəkdə əsas, önəmli istiqamətlər üzrə görüləcək işlər haqqında fikirlərimi çatdırdım. Bir daha demək istəyirəm ki, bu planların reallaşması üçün bütün imkanlar var. Biz bu günə qədər heç vaxt boş vədlər verməmişik, nəyi demişiksə, onu da təmin etmişik. Bizə ictimaiyyət, xalq tərəfindən inamın böyük hissəsi məhz bununla bağlıdır. Ancaq real planlar, real nəticələr və problemlər haqqında danışmışıq. Əlbəttə ki, cəmiyyətdə kifayət qədər problemlər var. Biz onları bilirik və bu problemlərin həlli istiqamətində öz fəaliyyətimizi, səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var.

Mən bu gözəl yubiley münasibətilə partiyamızın bütün üzvlərini bir daha təbrik etmək istəyirəm. Yeni Azərbaycan Partiyasına yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

X X X

Yubiley mərasimi geniş konsert proqramı ilə davam etdi.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Fələstin Prezidenti Mahmud Abbasa təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Prezident, ölkənizin milli bayramı - Fələstin Dövlətinin Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Fələstin əlaqələrinin genişlənməsi və möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və tərəqqi arzulayıram”.

***

Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.



# Azərbaycan ilə Çin arasında əlaqələr genişlənir

*YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov Çin Kommunist Partiyası Mərkəzi Komitəsi katibinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*






***Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov noyabrın 14-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Beynəlxalq əlaqələr şöbəsi katibinin müavini Li Çjunun rəhbərlik etdiyi nümayəndə heyətini partiyanın mənzil-qərargahında qəbul edib.***

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP Sədrinin müavini Əli Əhmədov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası, eləcə də, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib. YAP Sədrinin müavini Azərbaycan ilə Çin arasındakı dostluq əlaqələrinin əhəmiyyətini vurğulayaraq, ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək Yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın inkişafına zəmin yaratdığını qeyd edib. Bildirilib ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva və Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əkrəm Zeynallı iştirak ediblər.

# Naxçıvan Ali Məclisinin sədri Rumıniya səfiri ilə görüşüb

***Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku ilə görüşüb.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən SİA-ya bildirilib ki, Ali Məclisin Sədri ölkəmizə səfir təyin olunması münasibətilə Dan İankunu təbrik etdi, Azərbaycan-Rumıniya əlaqələrinin inkişafında və diplomatik münasibətlərin möhkəmləndirilməsində ona uğurlar arzuladı. Ölkələrimiz arasındakı əlaqələrdən bəhs edən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə Rumıniya arasında əməkdaşlığın inkişaf istiqamətlərini diqqətə çatdırdı, iqtisadi və təhsil sahəsində əlaqələrin qurulması üçün imkanların olduğunu vurğuladı.

Səmimi görüşə görə minnətdarlıq edən Dan İanku əlamətdar tarixdə - Dövlət Bayrağı Gününün qeyd edildiyi günlərdə muxtar respublikaya səfərindən məmnunluğunu bildirdi. Naxçıvanın qədim tarixə və zəngin mədəniyyətə, eləcə də müasir inkişaf potensialına malik olduğunu bildirən səfir muxtar respublika ilə müxtəlif sahələrdə əlaqələrin qurulmasında və inkişafında səylərini artıracağını qeyd etdi.

# Seymur Orucov: YAP Gənclər Birliyi hazırda 270 000-dən artıq gənci ətrafına toplayıb



“25 il tarix üçün o qədər də uzun zaman deyil. Lakin, arxaya boylanıb ötən 25 ildə hansı hadisələrin baş verməsi, Azərbaycanın bütün sahələrdə necə böyük nailiyyətlər əldə etməsi doğrudan da, qürurvericidir. Heç bir mübaliğəyə yol vermədən qeyd edə bilərəm ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin güclənməsində müstəsna rol oynayıb, güclənən bu müstəqillik isə Azərbaycan vətəndaşının rifah halının yaxşılaşmasında, ölkədə təhsil səviyyəsinin artırılmasında, iqtisadi inkişafın davamlılığında, ümumilikdə bütün sahələrin inkişafında mühüm rol oynayıb”. Bu fikirləri YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov deyib.

S.Orucov bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə mühüm nailiyyətlər qazanır. Onun sözlərinə görə, əldə olunan nailiyyətlərin əsasında Ulu öndər Heydər Əliyevin siyasi irsinə sadiqlik, xalqa sədaqətli xidmət və praqmatik düşüncə tərzi dayanır.

“Təqdirəlayiq haldır ki, Yeni Azərbaycan Partiyası gəncliyin inkişafına xüsusi diqqət yetirir. Həyata keçirilən bir çox layihələr, gənclərin tədbirlərinə dəstək verilməsi, onlar üçün geniş imkanların yaradılması buna əyani sübutdur. Təbii ki, partiyamızda gənclərin öz bilik və bacarıqlarının üzə çıxarılması üçün geniş imkanlar yaradılıb. Partiya rəhbərliyi intellektual, fəal gənclərin bir çox təşəbbüslərini dəstəkləyir və onların cəmiyyət həyatında daha aktiv iştirak etməsi üçün hərtərəfli dəstək göstərir. Bütün bunlara görə, Azərbaycan gəncliyinin mütləq əksəriyyəti öz siyasi talelərini YAP-la bağlayırlar. Bu gün partiyamızın üzvlərinin sayı 700 min nəfərdən çoxdur və yeni qoşulanların əksəriyyəti də məhz gənclərdir. Belə ki, 1995-ci ildə yaradılan YAP Gənclər Birliyi hazırda 270 000-dən artıq gənci ətrafına toplayıb. Bu gənclər sırasında alimlər, elmlər namizədləri, olimpiya çempionları, incəsənət xadimləri və əhalinin digər təbəqələrinin nümayəndələri var”- deyə, S.Orucov vurğulayıb.

# Sergey Lavrov Azərbaycana gəlir



Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edəcək. Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

O qeyd edib ki, xarici işlər naziri Elmar Məmmədyarov 16 noyabr tarixində Moskvaya işgüzar səfər edəcək. Səfər əsnasında Moskva şəhərində E.Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü nəzərdə tutulub: “20 noyabr tarixində isə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edəcək”.

# Milli Məclisdə Azərbaycan-Çin münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

***Noyabrın 14-də Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi katibinin müavini Li Çjunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə QHT-lərin və Strateji Araşdırmalar Mərkəzinin nümayəndələri də iştirak ediblər.***



Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, Çinlə işçi qrupu Milli Məclisdə ən böyük işçi qruplarından biridir. Parlamentin beş komitəsinin sədrləri də bu qrupun üzvləridir.

Qeyd olundu ki, bu gün Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlər yüksək səviyyədədir. Çin Kommunist Partiyasının 2017-ci ilin oktyabrında keçirilmiş XIX qurultayı barədə danışan Siyavuş Novruzov qurultayın uğurla keçməsi münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, həmin qurultayda qəbul olunmuş qərarlar təkcə Çin xalqı üçün deyil, həm də Orta Asiya və Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir.

2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin fəaliyyətə başladığını xatırladan Siyavuş Novruzov bildirdi ki, gələcəkdə bu yol Çindən Böyük Britaniyaya qədər uzanaraq Asiya ilə Avropanı birləşdirəcək.

Qeyd edildi ki, bu gün Çin iqtisadiyyatı dinamik inkişaf edir, dünya iqtisadiyyatında öz payını artırır və qlobal risklərin qarşısının alınmasında böyük rol oynayır.

Siyavuş Novruzov mötəbər beynəlxalq tədbirlərdə həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə Çin dövlətinə minnətdarlığını bildirdi.

Li Çjun diqqətə çatdırdı ki, Çin və Azərbaycan ötən 25 il ərzində qarşılıqlı münasibətlərdə böyük uğurlara imza atıblar. Hər iki ölkənin hakim partiyaları arasında münasibətlərin yüksək səviyyədə olması da bu sahədə öz sözünü deyir. O, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin XIX qurultayında müzakirə olunmuş məsələlər və qəbul olunmuş qərarlar barədə ətraflı məlumat verdi.

Söhbət zamanı Çinin inkişafında elmi-texniki tərəqqinin rolu barədə də fikir mübadiləsi aparıldı. Görüşdə çıxış edən Milli Məclisin komitə sədrləri Ziyad Səmədzadə, Eldar İbrahimov, Hadi Rəcəbli və İsa Həbibbəyli Çin iqtisadiyyatının inkişafı, bu inkişafın gələcəkdə də davam etməsi üçün görülən işlər barədə fikirlərini bildirdilər.

# Pakistan ictimaiyyəti Azərbaycan həqiqətləri barədə məlumatlandırılıb

***Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin "Waqt TV" kanalının "Səfirlik yolu" proqramına müsahibə verib.***



AZƏRTAC xəbər verir ki, səfir Azərbaycan-Pakistan münasibətlərinin inkişafı, hər iki ölkə rəhbərliyinin diqqəti nəticəsində əməkdaşlığın daha da şaxələndirilməsi istiqamətində görülən işlər və həyata keçirilən layihələr haqqında məlumat verib. Azərbaycanda xarici investorlar üçün yaradılan münbit şərait, kənd təsərrüfatı, sənaye sahələri və texnoloji parkların fəaliyyəti haqqında məlumat verən səfir Azərbaycanla Pakistan arasındakı strateji tərəfdaşlıq münasibətlərinin ticarət-iqtisadi, hərbi-texniki, enerji, turizm və digər sahələrdə də əməkdaşlığa öz töhfəsini verdiyini söyləyib. O, 2017-ci ildə ticari-iqtisadi və kənd təsərrüfatı sahələrində əməkdaşlığın genişləndirilməsi üçün iki birgə işçi qrupun yaradıldığını, viza rejiminin Pakistan vətəndaşları üçün sadələşdirildiyini və qarşılıqlı investisiya üçün imkanların artdığını bildirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti, Xocalı soyqırımı haqqında məlumat verən səfir Azərbaycan torpaqlarının sülh yolu ilə azad olunması üçün dünya ictimaiyyətinin təcavüzkar Ermənistana təzyiq göstərməsinin və ciddi sanksiyalar qəbul etməsinin vacibliyini bildirib.

Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması ilə bağlı məlumat verən səfir İslam dininin sülh və əmin-amanlıq dini olduğunun dünya ictimaiyyətinə bir daha çatdırılması, İslam ölkələri arasında birlik və həmrəyliyin daha da möhkəmləndirilməsi üçün Azərbaycanda, eləcə də ölkəmizin təşkilatçılığı ilə digər xarici ölkələrdə müxtəlif tədbirlərin təşkil olunması və layihələrin icra edilməsi, 54 ölkənin iştirakı ilə İslam Həmrəyliyi Oyunlarının Bakıda yüksək səviyyədə keçirilməsi barədə məlumat verib.

Səfir, həmçinin aparıcının ikitərəfli əlaqələrə və regional məsələlərə dair digər suallarına cavab verib, bu ilin sonuna kimi Azərbaycanla Pakistan arasında bir sıra qarşılıqlı səfərlərin baş tutacağını və layihələrin icra ediləcəyini bildirib.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***İslamabad***

# Azərbaycan ilə Misir arasında mədəni və dini bağlılıq münasibətlərimizin inkişafına müsbət təsir göstərir



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Misir Ərəb Respublikasının Cənubi Sinay vilayətinin qubernatoru, Şarm-əş-Şeyx şəhərinin meri Xalid Fudə Məhəmmədin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Misir arasında tarixi əlaqələrə toxunan nazir Elmar Məmmədyarov ölkələrimiz arasında mədəni və dini bağlılığın münasibətlərin genişləndirilməsinə müsbət təsir göstərdiyini və əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu bildirib.

Azərbaycana xüsusi rəğbəti olduğunu bildirən Xalid Fudə Məhəmməd deyib ki, iki ölkə arasında birbaşa uçuşların bərpa edilməsi qarşılıqlı əməkdaşlığı gücləndirəcək və turizmin inkişafına təkan verəcək.

Görüşdə ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığın hazırkı vəziyyətinə nəzər salınıb, bu istiqamətdə səylərin artırılmasının vacibliyi vurğulanıb. Keçən il Misirə rəsmi səfərini və keçirdiyi görüşləri xatırladan Elmar Məmmədyarov yüksək səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığa töhfə verdiyini bildirib.

# Sergey Jeleznyak: Rusiya ilə Azərbaycanın dostluğunu pozmaq istəyənlərin cəhdləri əbəsdir



Əminəm ki, Rusiya ilə Azərbaycanın dostluq və əməkdaşlığı böyük məna kəsb edir, ona görə də bu və ya digər xarici qüvvələrin bu dostluğu pozmaq cəhdləri əbəsdir. Regionda sülhə, harmoniyaya, qarşılıqlı anlaşmaya, həmçinin Qafqazda mövcud olan çox mürəkkəb məsələlərin həllinə nail olmaq daha mühümdür.

AZƏRTAC xəbər verir ki, Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsinin üzvü Sergey Jeleznyak bu fikirləri "Vestnik Kavkaza" agentliyinə müsahibəsində bildirib.

Rusiyalı deputat Rusiya, Azərbaycan və İran prezidentlərinin bu yaxınlarda baş tutan Tehran görüşünün əhəmiyyətini xüsusi qeyd edib. S.Jeleznyak deyib: "Bu mühüm görüş təkcə regionda təhlükəsizlik məsələlərinə deyil, həmçinin iri iqtisadi layihələrin icrasına, Xəzər dənizi regionunda mövcud olan logistik potensiala həsr olunub. Söhbət Cənub-Şərqi Asiyadan Avropaya ölkələrimiz vasitəsilə malların, yüklərin nəqlinin artırılmasına kömək edə biləcək dəmir yolu xəttinin yarımçıq hissəsinin tikintisini başa çatdırmaq barədə olub".

Rusiyalı siyasətçi əmindir ki, bu layihə hər üç ölkənin hökumətləri üçün əsas prioritetlərdən biri olacaq. Deputat deyib: "Ölkələrimizin hər biri bu regionda ticarətin möhkəmlənməsi və inkişafından böyük bonuslar qazanacaq. Bu əməkdaşlığın İrana, Azərbaycana və Rusiyaya yalnız faydası olacaq".

# "Şimal-Cənub" dəhlizi ilə daşınan yüklərin həcmi artacaq

***Cari ilin ötən 7 ayı ərzində İran ərazisindən 5,4 milyon ton yük daşınıb. AZƏRTAC xəbər verir ki, İranın Yollar və Şəhərsalma Nazirliyinin nümayəndəsi Rza Nəfisi İran üzərindən daşınan yüklərin 1,6 milyon tonunu neft, 3,8 milyon tonunu isə qeyri-neft məhsulları təşkil edib. Onun sözlərinə görə yüklərin 36,1 faizi Bəndər-Abbas şəhərindəki Şəhid Rəcayi limanından daxil olub.***

Cənub-Şərqi Asiya ölkələrindən İrana daxil olan yüklər Azərbaycandan tranzit keçməklə Rusiya və Avropa istiqamətinə yola salınıb. Bu isə onu deməyə əsas verir ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi artıq fəaliyyət göstərir. Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu xətti istismara verildikdən sonra isə Rusiya və Avropaya yüklər məhz bu yolla daşınacaq. Dəmir yolu hazır olduqdan sonra daşınan yüklərin həcmi daha da artacaq. Çünki hələlik yüklər gəmilərdən boşaldılaraq vaqonlara daha sonra isə yük maşınlarına yüklənərək daşınır ki, bu da vaxt itkisi ilə yanaşı keyfiyyəti də aşağı salır. Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu xətti hazır olduqdan sonra isə yüklər Şəhid Rəcayi limanında gəmilərdən birbaşa qatara yüklənəcək və heç bir yerdə təkrar yükləmə olmadan Avropaya qədər hərəkət edəcək. Bu fakt isə qeyd etdiyimiz kimi yüklərin həcminin artmasına səbəb olacaq.

# Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından uğurla çıxan ən böyük siyasi təşkilatdır

***Ümumiyyətlə, respublikamızın müstəqillik tarixinin bələdçisi olan, nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatı kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasından 25 il ötür. 25 illik şərəfli yol keçən Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan dövlətinin onurğa sütununu təşkil edir. Hər bir tarixi gün keçilən yolun təhlilini bir zərurət kimi ortaya çıxarır. Partiyanın yaradıcısı, müstəqil Azərbaycanın memarı və qurucusu olan Ulu Öndərimiz Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyət başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır" fikirləri Yeni Azərbaycan Partiyasının hansı zərurətdən yaradılmasına işıq salmaqla yanaşı, perspektivlərini də açıqlayır.***




YAP çətinliklərdən uğurla çıxaraq böyük şərəfli yol keçmiş, müxalifət partiyası kimi siyasi arenaya gələrək qısa zamanda iqtidar partiyasına çevrilərək sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşdirmiş, qarşıya yeni-yeni hədəflər qoyaraq, onlara nail olmaq üçün ciddi səylər göstərərək, bir-birindən əhəmiyyətli uğurlara imza atır.

Ötən hər günün ölkənin, partiyanın həyatında böyük rol oynadığını, hesabat xarakteri daşıdığını nəzərə alsaq, 25 ildə keçilən yolun geniş xarakteristikasını bir yazı çərçivəsində əhatə etmək mümkünsüzdür. Böyük çətinliklərə, fırtınalara sinə gərərək, həyata keçirdiyi uğurlu siyasəti ilə milyonların partiyası imicini qazanan Yeni Azərbaycan Partiyası öz adında böyük bir mənanı və məqsədi birləşdirir. Müstəqilliyinin ilk illərində ölkəyə rəhbərlik edənlərin siyasi savadsızlığı, səriştəsizliyi ucbatından varlığı şübhə altında qalan, dünya xəritəsindən bir dövlət olaraq silinmək təhlükəsini yaşayan Azərbaycanın bu bəlalardan xilas olması üçün xalqın üzünü Ulu Öndər Heydər Əliyevə tutması gələcəyə ümiddən xəbər verirdi. Yəni həmin dövrdə ölkədə yaranan vəziyyət xalqda sabaha ümidsizlik yaratsa da, bir təsəlli var idi ki, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıdarsa, öz siyasi bacarığı, təcrübəsi, güclü idarəçilik qabilyyəti sayəsində mövcud problemlərin həllinə yol açar, Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxarar. Xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olan 91 nəfər ziyalının "Səs" qəzeti vasitəsi ilə Ümummilli Liderimiz Heydər Əliyevə müraciətində də bu inam öz əksini tapmışdır: "İndiki vəziyyətdə bu çətin və məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz... Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük." Müraciətdə bu inam da ifadə olunmuşdur ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda, məhz bu partiyanın mövqeyində dayanacaqlar.

Bu gün partiyanın fəaliyyətində demokratik prinsipləri öndə saxlayaraq birləşdirici missiyanı yüksək səviyyədə yerinə yetirməsi, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirməsi Ümummilli Lider Heydər Əliyevin bu əminliyinin böyük əsaslara söykəndiyini təsdiq etməklə yanaşı, partiyanın öz dəsti-xəttinə sadiqliyini də nümayiş etdirir. Yeni Azərbaycan Partiyasının yaradılmasının 15 illiyi şərəfinə həsr olunmuş ziyafətdə Prezident İlham Əliyev 1992-ci ildə müxalifət partiyası kimi yaradılan YAP-la indiki müxalifət arasında fərqi təhlil edərək bildirmişdir ki, biz dövlətə, dövlətçiliyə yox, o vaxtkı antimilli iqtidara müxalifətdə idik. "Deyə bilərəm ki, Yeni Azərbaycan Partiyası Azərbaycanda siyasi davranış, siyasi mədəniyyət nümunəsini göstərmişdir. Biz müxalifətdə əlimizdə daş-kəsəklə yox, əlimizdə qələmlə çalışırdıq. İdeyalarımızı, fikirlərimizi öz çıxışlarımızda, məqalələrdə, ictimai tədbirlərdə irəli sürürdük. Bugünkü müxalifətdən fərqli olaraq, biz maksimum dərəcədə siyasi mədəniyyət göstərmişdik. Siyasi opponentləri təhqir etməmişdik, onlara fiziki xəsarət yetirməmişdik. Biz, sadəcə, xalqın iradəsinə arxalanaraq, Azərbaycanın uğurlu gələcəyinə çalışırdıq."

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı yeni, müasir Azərbaycanın yaranmasını şərtləndirdi. O, uğurlu, düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı yenidən qurdu. Azərbaycanın dünyaya günəş kimi doğacağını bir hədəf kimi qarşıya qoyan Ulu Öndər Heydər Əliyev çox qısa zamanda bu məqsədə nail oldu. Ölkədə sabitliyin, əmin-amanlığın yaradılması malik olduğumuz enerji resurslarından səmərəli istifadəyə yol açdı. Dövlət başçısı İlham Əliyev hər zaman çıxışlarında 1993-cü ildəki Azərbaycanla bugünkü Azərbaycanı müqayisə edərək, bu reallığı bəyan edir ki, müstəqil müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir: "O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür və əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik və milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın Əbədi Lideri Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, Onun əməyidir ki, xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk."

Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 1993-2003-cü illər ölkəmizin dirçəlişi və tərəqqisi dövrü kimi xarakterizə olunur. Xaosdan, anarxiyadan, özbaşınalıqdan, iqtisadi böhrandan xilas olan Azərbaycan bütün çətin anları geridə qoyaraq, inkişaf yoluna çıxdı. İqtisadi sahədə yaşanan tənəzzül aradan qaldırıldı, siyasi prosseslər müsbət məcrada inkişaf etməyə başladı. Ölkəmizdə siyasi plüralizm, demokratiya, söz və fikir azadlığı bərqərar oldu və çoxpartiyalı sistem yaradıldı. Bu sistemin yaradılmasında Yeni Azərbaycan Partiyasının rolu inkaredilməzdir. Bu fikir dövlət başçısı İlham Əliyevin çıxışlarında da hər zaman önə çəkilir ki, Yeni Azərbaycan Partiyası öz mövqeyini başqa partiyaları zəiflətməklə yox, öz fəaliyyəti ilə təmin etmişdir. YAP bu gün Azərbaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirən partiyadır. Ölkəmizin uğurlarında partiyamızın

# Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından uğurla çıxan ən böyük siyasi təşkilatdır

rolu böyükdür və danılmazdır.

26 illik müstəqillik tarixinə malik olan Azərbaycanın keçdiyi inkişaf yolunun qısa təhlili bu uğurlara töhfələri ilə diqqətçəkən Yeni Azərbaycan Partiyasının inkişaf tarixinə baxışımızdan irəli gəlir. Dövlətə və xalqa xidməti fəaliyyətinin önündə saxlayan Yeni Azərbaycan Partiyasının uğurları davamlıdır, yeni-yeni hədəflərə çatmaq üçün ciddi səylər göstərir. Demokratik cəmiyyətin mövcudluğunu təsdiqləyən əsas göstəricilərdən biri, məhz ölkədə seçkilərin azad, şəffaf və dünya standartlarına uyğun keçirilməsidir. 1995-ci ildə Milli Konstitusiyamızın qəbulundan ötən dövr ərzində ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərinə, ümumxalq səsverməsinə diqqət yetirsək, Yeni Azərbaycan Partiyasının böyük qələbələr qazanması xalqın ona inamının, dəstəyinin göstəricisidir. Ulu Öndərimiz Heydər Əliyevin yaradıcısı olan Yeni Azərbaycan Partiyası son 14 ildə dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir, təkmilləşir, yeniləşir. Hazırda sıralarında 700 mindən artıq üzvü birləşdirən partiyamızın hər bir üzvü ölkəmizin uğurlarına töhfə verməyə çalışır. Yeni Azərbaycan Partiyasının nümayəndələri bütün orqanlarda fəal iştirak edir, öz fəaliyyətləri ilə ölkəmizi gücləndirir, siyasi sistemin inkişafında fəal rol oynayırlar. Dövlət başçısı İlham Əliyev bildirir: "Biz iqtidar partiyasıyıq. Ona görə iqtidar partiyasıyıq ki, bizim siyasətimiz xalq siyasətidir. Deyə bilərəm ki, biz ümumxalq partiyasıyıq. Çünki Azərbaycanın qarşısında duran bütün məsələlərdə biz fəal iştirak edirik. Biz öz əməyimizlə bu siyasəti aparırıq."

Bu reallıq da inkaredilməzdir ki, siyasət ilk növbədə, praktik işlərdir. Görülən işlər, sözlə əməl birliyi Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq imkanında deyil.

Partiyanın sıralarında gənclərin daha çoxluq təşkil etməsi öz potensial imkanlarından istifadə etmək üçün lazım olan şəraitin yaradılmasından irəli gəlir. Gənc siyasətçilərin yetişdirilməsinə xidmət edən layihələrin icrası təqdir olunur. Dövlət siyasətində gənclərə diqqət və qayğı partiyanın fəaliyyətində də özünü qabarıq şəkildə büruzə verir.

Məlum olduğu kimi, son parlament və bələdiyyə seçkilərində gənclərin təmsilçilik faizlərinin artırılması qarşıya mühüm vəzifə kimi qoyularaq, bu istəyə lazımi səviyyədə nail olunmuşdur. Partiyanın hər bir üzvü kimi, gənclər də müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə səy göstərir.

Təbii ki, əvvəldə də qeyd etdiyimiz kimi, bir yazı çərçivəsində ölkənin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolunu əhatə etmək qeyri-mümkündür. Ümumiləşdirmə aparsaq, Ulu Öndər Heydər Əliyevin böyük inamla söylədiyi "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikri bu günümüzün reallığıdır. Bu gün sıralarında 700 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyası 25 illik tarixi yoluna böyük qürur hissi ilə baxır. Azərbaycanın hər bir uğurunda imzası olan Yeni Azərbaycan Partiyası gələcəyə böyük inamla irəliləyir.



*Manaf Manafov,*
*YAP üzvü, Pirallahı rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi*

## "Qida Təhlükəsizliyi Komissiyasının fəaliyyəti nəticəsində daxili bazar keyfiyyətli ərzaqla təmin olunacaq"

Qida Təhlükəsizliyi Komissiyası tərəfindən həyata keçiriləcək tədbirlər nəticəsində daxili bazar keyfiyyətli ərzaqla təmin olunacaq. AZƏRTAC xəbər verir ki, bunu iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov jurnalistlərə müsahibəsində deyib. Prezident İlham Əliyevin 2017-ci il 13 noyabr tarixli Fərmanına əsasən, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə" təsdiq edilib. Qida Təhlükəsizliyi Agentliyinin 2018-ci il yanvarın 1-dən etibarən fəaliyyətə başlaması nəzərdə tutulub. Agentliyin fəaliyyətini təmin etmək məqsədilə Qida Təhlükəsizliyi Komissiyası yaradılıb. Həyata keçirilən bu tədbirlər ölkədə qida məhsullarının təhlükəsizliyinə xidmət edəcək və keyfiyyətin yüksəldilməsinə, bu istiqamətdə sistemli tədbirlərin həyata keçirilməsinə dəstək verəcək. Əlbəttə, ixracın da əsas tələblərindən biri odur ki, ixrac olunan məhsullar keyfiyyətli olsun, yüksək qablaşdırılsın, eyni zamanda, logistika məsələlərində beynəlxalq standartlar tətbiq olunsun və bu məsələlərin məhz Qida Təhlükəsizliyi Komissiyası tərəfindən həyata keçirilməsi bu istiqamətdə növbəti inkişaf mərhələsinə keçidi təmin edəcək.

## MTRŞ xəbər televiziya kanalının yaradılması ilə bağlı müsabiqə elan edib

Noyabrın 14-də Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. Şuradan AZƏRTAC-a bildiriblər ki, iclasda xəbər televiziya kanalının yaradılması barədə müzakirələr aparılıb və ixtisaslaşmış (xəbər) televiziya kanalının açılması üçün ümumrespublika televiziya yayımı üzrə Bakı və Abşeron ərazisində 31-ci tezlik resursuna 2017-ci il noyabrın 16-dan dekabrın 16-dək müsabiqə elan edilib. İclasda, həmçinin Dalğa TV-nin peyk yayımı üçün lisenziya verilməsi barədə müraciətinə baxılıb və ona peyk yayımı üçün müddətsiz lisenziya verilməsi barədə qərar qəbul edilib.



## Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər

Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi andı qəbul etdikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrik telefonqramı çatdırılıb. Mərasimdə çıxış edənlər ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərindən, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd təhlükəsizliyinin ən yüksək səviyyədə təşkil olunmasından danışıblar. Çıxışlarda Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminlik ifadə ediblər.







Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası üçün istənilən anda ordumuzla birgə hərəkət etməyə, Dağlıq Qarabağda və işğal altında olan digər ərazilərdə Azərbaycanın suveren hüquqlarının bərpası, Vətənimizin bütün sərhədlərinin mühafizə altına alınmasının təmin edilməsi uğrunda savaşa daim hazır olduğu xüsusi vurğulanıb. Valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarına Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər. Mərasim gənc əsgərlərin tribuna önündən təntənəli marşla keçidi ilə başa çatıb.

# Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır

***Bu gün biz müstəqil Azərbaycan dövlətinin qurulmasında və respublikamızın inkişafında əvəzsiz xidmətləri olan Yeni Azərbaycan Partiyasının yaranmasının 25-ci ildönümünün ərəfəsindəyik. Partiyamızın keçdiyi 25 illik şərəfli yol yüz minlərlə insanı ətrafında birləşdirən, sayı 700 min nəfəri ötən partiyanın fəaliyyətində əhəmiyyətli məqam olmaqla yanaşı, həmçinin ölkəmizin siyasi tarixində əlahiddə hadisə kimi səciyyələnir. Yeni Azərbaycan Partiyası tariximizin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında və bu böyük şəxsiyyətin ətrafında birləşən insanların fəal iştirakı ilə yaranmışdır. Ötən əsrin 80-ci illərinin sonlarından etibarən Azərbaycanın üzləşdiyi böhran və fəlakət xalqın sabaha olan ümidlərini demək olar ki, qırmışdı. Ermənilərin Qarabağdan başladıqları işğalçılıq siyasəti, ittifaq rəhbərliyinin antiazərbaycan mövqeyi daha acınacaqlı nəticələrlə - respublika başçılarının öz millətinə qarşı xəyanətkar münasibəti ilə davam etdirilirdi.***

1990-cı illərin əvvəllərində və dövlət müstəqilliyi qazanıldıqdan sonra yaranan bəzi partiyalar isə ölkəni ağır iqtisadi və siyasi böhrandan nəinki qurtara bilmədilər, əksinə, vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar. Onların anormal idarəetmə metodu daxili situasiyanı gərginləşdirməklə yanaşı, gələcək perspektivləri də ciddi təhlükə altına salmışdı. Naşı rəhbərlik və onların yarıtmaz idarəçiliyi nəticəsində yaranan xaos, parçalanma, dövlətin məhvi kimi problemlər AXC-Müsavat iqtidarının ilk günlərindən etibarən Azərbaycanda yeni siyasi gücə böyük ehtiyac yaratmışdı. Artıq hədəf də, istinadgah da xalqın nəzərində çoxdan müəyyənləşmişdi: Böyük dövlət xadimi Heydər Əliyev. Məhz ona görə də Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqın sınanmış lideri Heydər Əliyevin ətrafında birləşdilər.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Azərbaycanın müxtəlif bölgələrindən təəssübkeş qrupların 550-dən artıq nümayəndəsinin iştirak etdiyi möhtəşəm tədbir soyuq qış günündə, zaldakı sərt hava şəraitində baş tutdu. Konfransda Ulu öndər Heydər Əliyev yeni yaranan partiyanın əsas məqsəd və vəzifələrini, bu partiyanı digər təşkilatlardan fərqləndirəcək xüsusiyyətləri izah etdi, hər bir partiya üzvünün qarşısında dayanan vəzifəni müəyyənləşdirdi. Ulu öndər Heydər Əliyev bildirirdi ki, Yeni Azərbaycan Partiyasının hər bir üzvünün borcu dövlətin ərazi bütövlüyünü, müstəqilliyini, ictimai asayişi qorumaq, qanunlara tabe olmaq, iqtidarla sivil müxalifətçilik etmək, ölkənin mənafeyini bütün maraqlardan üstün tutmaqdır. Yalnız bu şərtlərə riayət edən şəxs Yeni Azərbaycan Partiyasının əsl üzvü, partiyanın siyasi xəttini düzgün anlayan və yerinə yetirən təəssübkeş sayıla bilər.



***Nazim İsmayılov***
***Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, Sabirabad rayon İcra Hakimiyyətinin başçısı***

Beləliklə, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan tarixində öz üzərinə böyük missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Partiyanın yaranması, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin partiyaya Sədr seçilməsi zəruri tarixi hadisə idi. Azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi həyatina yeni nəfəs verdi, Azərbaycanın siyasi həyatında ümid çırağı yandırdı.

Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaransa da, indiki bəzi müxalifət partiyalarından fərqli olaraq, Azərbaycan dövlətçiliyinə, milli maraqlara müxalifətdə deyildi. Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalifətdə olmuşdur, çünki bütün Azərbaycan xalqı o dövrdə ölkəni təhlükəli həddə çatdıran iqtidara müxalifətdə idi. Ona görə bu gün özlərini insan hüquqlarının müdafiəçiləri, azadlıq, demokratiya carçıları adlandıran o zamankı məlum iqtidar nümayəndələri Ulu öndər Heydər Əliyevin adı ilə bağlı bir partiyanın yaranmasından və bütün Azərbaycanda sürətlə təşkilatlanmasından hədsiz qorxuya düşmüşdülər. Xalqın Heydər Əliyevin zəkasına, idarəçilik qabiliyyətinə, müdrikliyinə olan inamı, bu partiyanın çox tezliklə milyonların partiyasına çevriləcəyinə heç bir şübhə yeri qoymurdu. Məhz bu realliq o dövrki səriştəsiz rəhbərliyi qane etmirdi və öz hakimiyyətlərini qoruyub saxlamaq üçün bütün vasitələrdən istifadə edərək Yeni Azərbaycan Partiyasının təşkilatlanmasına maneçiliklər törətməyə çalışırdılar. Lakin o zamankı hakimiyyət dairələrinin yaratdığı əngəllər, əsassız təzyiqləri bu yola qədəm qoyan insanların əzmini və iradəsini qıra bilmədi. Respublikanın ən ucqar dağ kəndlərində belə Yeni Azərbaycan Partiyasının yaranması xəbərini eşidən sadə əmək adamları, bütün ziyalılar Heydər Əliyevin yenidən siyasət meydanına qayıtmasını böyük ruh yüksəkliyi ilə qarşılayırdılar.

Beləliklə, müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlmişdir. Başqa cür desək Yeni Azərbaycan Partiyasının yaranması xalqın istək və arzularının təcəssümü, yekdil iradəsinin ifadəsi kimi tarixi reallıqdan irəli gəlmiş, bu təşkilat vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və suverenlik, azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində qurulub inkişaf etmişdir. Yeni Azərbaycan Partiyasının ideya məfkurəsini təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri partiyanın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olmaqla yanaşı, Azərbaycanın siyasi gələcəyini, inkişaf prioritetlərini də şərtləndirirdi. Ulu öndərin yeritdiyi siyasət hər bir fərdin maraq və mənafeyini özündə ehtiva etdiyindən, qısa zamanda cəmiyyətin ən müxtəlif zümrələrinin Yeni Azərbaycan Partiyasına sürətli axını başlamış, onların ictimai-siyasi həyatda fəallığı əhəmiyyətli dərəcədə artmışdır. Bir-birinin ardınca respublikamızın rayon və bölgələrində Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının təsis konfransları keçirildi. Cəmi 1 il ərzində Azərbaycanın 67 rayon və şəhərində Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları, 1500-ə qədər kənd və qəsəbə ilk təşkilatları yarandı.

Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. 1993-cü ilin məlum iyun böhranı zamanı ölkənin taleyinə biganə olmayan insanlar yaxşı başa düşürdülər ki, Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu bəlalardan qurtarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. İyun ayının 9-da xalqın və həm də o zaman çıxılmaz vəziyyətə düşmüş AXC-Müsavat iqtidarının təkidli tələbi ilə Bakıya qayıdan Ulu öndər fövqəl idarəçilik keyfiyyətlərindən məharətlə istifadə edərək xalqımızı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. İyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratmışdır. Yeni Azərbaycan Partiyasının yaranmasından cəmi 6 ay sonra Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə dönüşünün kökündə dayanan əsas həqiqət Azərbaycan xalqının fəlakətlərdən xilas olmaq ümidlərini, gələcəklə bağlı arzularını Heydər Əliyevlə və Yeni Azərbaycan Partiyası ilə bağlamaq arzusu idi. Xalq yaxşı bilirdi ki, xilaskarlıq missiyasını yalnız təkrarsız şəxsiyyət Heydər Əliyev üzərinə götürə bilər.

Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevə etimad göstərərək Onu ölkənin Prezidenti seçdi. Ulu öndər Heydər Əliyevin Prezident seçilməsindən sonra Yeni Azərbaycan Partiyasının statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmlənmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirməyə başlamışdır. Bununla da tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası müstəqilliyimizin qorunmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, tənəzzül etmiş iqtisadiyyatımızın inkişaf etdirilməsində və demokratik təsisatların bərqərar olunmasında siyasi flaqman rolunu hakim siyasi partiya olaraq öhdəsinə götürmüşdür. Həmin vaxtdan etibarən Yeni Azərbaycan Partiyası Azərbaycanı düçar olduğu təhlükə və böhranlardan qurtarmaq üçün özünün məqsədyönlü fəaliyyətinə start vermişdir. Ölkənin milli maraqlarının qorunması, təhlükəsizliyinin təmin edilməsi, vətəndaş sülhünün bərqərar olması, problemlərin aradan qaldırılması, dövlət quruculuğu, bütün sahələrdə islahatların aparılması Ulu öndər Heydər Əliyevin yürütdüyü siyasi kursun ana xəttini təşkil etmişdir. Ümummilli liderin hakimiyyətə qayıdışı və siyasi sabitliyin tam təmin olunması ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental əhəmiyyət kəsb etməyə başlamış və gələcək iqtisadi inkişaf prioritetləri müəyyənləşdirilmişdir. Heydər Əliyevin xalqı sabaha daha inamlı baxmağa səsləyən fədakarlığı bu böyük şəxsiyyətin "şah əsəri" hesab etdiyimiz doğma Azərbaycanımızın dinamik və davamlı inkişafına da yol açmışdır.

Yeni Azərbaycan Partiyası bütün situasiya və məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində durmuş, xalqımızın arzularının təcəssümü, yekdil iradəsinin ifadəçisi kimi istənilən tarixi situasiyada taktiki tədbirlər həyata keçirməyi bacarmışdır. Təsadüfi deyil ki, 1993-cü ildən ötən müddətdə ölkəmizdə keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərinin qalibləri Yeni Azərbaycan Partiyasının namizədləri olmuşlar. Bu qələbələr Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki yerinin möhkəm olduğunu, dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq xalqın bu təşkilata böyük etimad göstərdiyini təsdiq edir.

Çox sevindirici haldır ki, Heydər Əliyev ideyaları bu gün möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hələ 1995-ci ildə partiyanın namizədi kimi parlament seçkilərində qələbə qazanan cənab İlham Əliyev YAP-ın gəncləşməsində, fəaliyyətinin daha effektiv qurulmasında müstəsna xidmətlər göstərmişdir. Bu baxımdan təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyasının birinci qurultayında təşkilatın çoxminli üzvlərinin istəyinə uyğun olaraq, cənab İlham Əliyev partiya Sədrinin müavini, ikinci qurultayda isə Sədrin birinci müavini seçilmişdir. Real həqiqətdir ki, tarixi şəxsiyyətin yolunu, ideyalarını yalnız tarixi şəxsiyyətlər davam etdirə bilər. Məhz bu səbəbdəndir ki, dünya şöhrətli dövlət xadimi, Ulu öndər Heydər Əliyev hələ 2003-cü ildə siyasi uzaqgörənliklə xalqa müraciətində hakimiyyət sükanının cənab İlham Əliyevə etibar olunmasını məsləhət bildi. Ümummilli lider Heydər Əliyev 2003-cü ilin oktyabr ayında Azərbaycan xalqına müraciətində cənab İlham Əliyevlə bərabər, həm də Yeni Azərbaycan Partiyasına yüksək önəm verdiyini qeyd etmiş, xalqa ən düzgün seçim ünvanı kimi məhz İlham Əliyevi və Yeni Azərbaycan Partiyasını göstərmişdir: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".

2003-cü, 2008-ci və 2013-cü illərdə Heydər Əliyev siyasi kursunun alternativsiz davamçısı kimi Prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də Yeni Azərbaycan Partiyasının zəfəri, nailiyyəti idi. 2005-ci ilin mart ayında Yeni Azərbaycan Partiyasının III qurultayının nümayəndələri çox şərəfli bir seçimə imza ataraq, cənab İlham Əliyevi təşkilata rəhbər seçdilər. Bu onu deməyə tam əsas verirdi ki, Yeni Azərbaycan Partiyasının yüz minlərlə üzvü və sayı milyonu keçən təəssübkeşləri, yeni Sədrini yekdilliklə dəstəkləyir və Onun ətrafında sıx birləşərək, yeni Azərbaycan quruculuğunda fəal iştirak edir. Ötən müddət ərzində özünü tam doğruldan bu inam həm də Yeni Azərbaycan Partiyasının növbəti böyük nailiyyətlər əldə etməsinə əsas zəmin oldu.

***Ardı Səh. 11***

## Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır

Əvvəli Səh. 10

Hazırda Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir. Bu çox böyük bir ordudur. Partiyamız öz ətrafında cəmiyyətin intellektual təbəqəsini birləşdirir ki, bu da çox mühüm bir göstəricidir. Partiyanın Gənclər Birliyi və Qadınlar Şurası da təşkilatın aparıcı qolları olaraq ölkənin ictimai-siyasi həyatında çox fəal iştirak edirlər.

Bu gün həm Yeni Azərbaycan Partiyasında, həm də müstəqil Azərbaycanda Heydər Əliyev ideyaları şərəflə, məsuliyyətlə, fədakarlıqla davam etdirilir, nəticəsi misilsiz nailiyyətlər olan alternativsiz siyasi kursla müşayiət olunur. Bu missiya əsasını Ulu öndərin qoyduğu müvəffəqiyyətlərin, milli inkişaf strategiyasının daha geniş miqyaslı davamıdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin əldə etdiyi böyük uğurların müəllifinin mövcud iqtidar və hakimiyyətin siyasi istinadgahı olan Yeni Azərbaycan Partiyası olduğunu bəyan etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazanmışdır. Son 13 ilin statistikasına və siyasi xronikasına baxmaq kifayətdir ki, Azərbaycan Respublikasının uğurlu inkişaf mənzərəsi hər kəsin gözü önündə canlansın. Bu gün Azərbaycanın tərəqqisi dünyanın hər bir güşəsindən görünür. Bu həqiqətin əsasını cənab İlham Əliyevin xalqın rifahı naminə həyata keçirdiyi uğurlu və ardıcıl siyasət təşkil edir.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycanda təkrarsız, unikal dövlət idarəçilik məktəbi yaratdı və onu xalqımız üçün zəngin bir irsə çevirdi. Xalqımızın ümid yeri olan dahi şəxsiyyət respublikamıza rəhbərlik etdiyi dönəmdə öz yorulmaz və çoxşaxəli fəaliyyəti ilə müasir Azərbaycanın tarixini yaratdı. Biz bu gün böyük qürur hissi ilə deyə bilərik ki, müasir müstəqil Azərbaycan dövləti öz başlanğıcını 1992-ci il noyabrın 21-dən - Yeni Azərbaycan Partiyasının yaradılması tarixindən götürüb. Bu müddətdə Yeni Azərbaycan Partiyası Azərbaycan xalqına əvəzsiz xidmətlər göstərmiş, xalqımızı, millətimizi, ölkəmizi bugünkü vəziyyətə gətirib çatdırmış və Azərbaycanı regionda bütün sahələr üzrə ən inkişaf etmiş ölkəyə çevirmişdir. Artıq 25 ildir ki, ölkəmizin siyasi səhnəsində uğurlu fəaliyyət göstərən partiyamız bu gün də cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə öz prinsiplərinə sadiqliyini nümayiş etdirir. Son illərin sosial-iqtisadi uğurları, Azərbaycanın beynəlxalq mövqelərinin və nüfuzunun yüksəlməsi bunun bariz göstəricisidir.

Azərbaycan xalqı öz Prezidentinin ətrafında sıx birləşib. Möhtərəm İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıraları getdikcə daha da artmaqdadır. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına olan dərin inamdan və ehtiramdan irəli gəlir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın 2013-cü ilin iyun ayının 7-də Yeni Azərbaycan Partiyasının V qurultayında partiyanın sədr müavini seçilməsi bu siyasi təşkilatın fəaliyyətinə yeni güc gətirdi. Bütün bunların nəticəsidir ki, Yeni Azərbaycan Partiyası monolit birliyi, sosial bazası və yüksək intellekti olan bir hakim siyasi təşkilat olaraq ölkəmizin ictimai-siyasi həyatında əvəzsiz işlər görür. Öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası Ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir.

Bu gün Yeni Azərbaycan Partiyasının qarşısında yeni vəzifələr durur. Bu vəzifələrin ən başlıcası Ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onun regionun və dünyanın qüdrətli dövlətləri sırasında liderliyini qorumaqdır. Yeni Azərbaycan Partiyası bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə Ümummilli lider Heydər Əliyevin ideyalarını, məqsəd və məramlarını rəhbər tutaraq Azərbaycanın çiçəklənməsinə və dövlətçiliyimizin qüdrətlənməsinə böyük töhfələr verəcək.

# Yeni Azərbaycan Partiyasının yubileyi münasibətilə YAP Səbail rayon təşkilatı Cocuq Mərcanlıya səfər təşkil edib

***Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 25 illik yubileyi münasibətilə partiyanın Səbail rayon təşkilatının və Səbail Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər təşkil olunub. AZƏRTAC xəbər verir ki, Böyük Qayıdışın başlanmasının rəmzi olan Cocuq Mərcanlıya səfərdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyevin rəhbərliyi ilə partiya fəallarından, o cümlədən rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələrindən ibarət 90 nəfər iştirak edib.***






Səfərin iştirakçıları əvvəlcə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabitlərlə görüşüblər.

Görüş zamanı aprel döyüşlərində Vətən uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin, həyatını itirmiş mülki şəxslərin və həmin hərbi hissənin 19 şəhid hərbi qulluqçusunun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyini əsgərlərlə birlikdə qeyd etmək üçün Cocuq Mərcanlıya gələn YAP Səbail rayon təşkilatı nümayəndə heyətinə təşəkkürünü bildirən birlik komandirinin müavini, polkovnik Elşad Əbilov əlamətdar hadisə münasibətilə hər kəsi təbrik edib, şəxsi heyətin xidməti-döyüş hazırlığı barədə məlumat verib. Bildirib ki, Azərbaycan bütün sahələrdə olduğu kimi, hərbi qüdrətini də gündən-günə artırır. Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Döyüş hazırlığına ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri hazırda istər quruda, istər havada, istərsə də dənizdə istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.





YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev qeyd edib ki, Orduda xidmət hər bir Azərbaycan gənci üçün şərəf və qürur mənbəyidir. Bu gün Ordumuzun hər bir əsgər və zabiti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində respublikamızın ərazi bütövlüyünün bərpası, torpaqlarımızı işğalçılardan azad etməyə tam qadirdir və buna hazırdır.

Şəmsəddin Hacıyev 2016-cı ilin aprel döyüşlərindən danışaraq diqqətə çatdırıb ki, Milli Ordumuz tərəfindən həyata keçirilən sürətli əks-həmlə zamanı Ermənistanın hərbi birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bir neçə istiqamətində yarılıb. Nəticədə Ordumuz strateji əhəmiyyətə malik yüksəklikləri və yaşayış məntəqələrini düşməndən tam azad edib. Aprel döyüşləri Azərbaycan hərb tarixinə ən şərəfli hadisələrdən biri kimi yazılıb və düşmən üzərində parlaq qələbə bu hərbi hissənin göstərdiyi qəhrəmanlıqlar nəticəsində qazanılıb.

"Bu gün Azərbaycan əsgəri və gəncliyi, ümumən bütün xalqımız öz əzəli torpaqlarını azad etmək üçün Ali Baş Komandanımızın əmrinə tam hazırdır. Amma biz istəyirik ki, məsələni beynəlxalq hüquq normalarına uyğun olaraq, sülh yolu ilə həll edək. Ali Baş Komandanımızın dediyi kimi, status-kvo qəbul olunmazdır və biz öz ərazilərimizdə ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik, bir qarış torpağımızı da güzəştə getməyəcəyik", - deyə Ş.Hacıyev vurğulayıb.

Sonra YAP Səbail rayon təşkilatının və rayon icra hakimiyyətinin adından hərbi hissəyə xatirə hədiyyələri təqdim olunub.

Bakı Bələdiyyə Teatrının və Füzuli Dram Teatrının hazırladığı səhnəciklər əsgər və zabitlərimizdə xoş ovqat yaradıb. Teatrın üzvləri əsgərlərlə birlikdə rəqs ediblər. Azərbaycan əsgərinin görüşünə gələn Cocuq Mərcanlı məktəblilərinin səsləndirdikləri şeirlər tədbirə rəngarənglik qatıb. Xidmətdə fərqlənən əsgər, çavuş və zabitlərin bir qrupuna fəxri fərmanlar verilib.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev hərbi qulluqçuların mükafatlandırılması mərasimində çıxış edərək Ordumuzun şücaətlərindən danışıb.

Sonra nümayəndə heyətinin üzvləri Horadiz-Cəbrayıl avtomobil yolunun kənarındakı "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edib, şəhidlərimizin ruhuna ehtiramlarını bildiriblər. Cocuq Mərcanlıda şəhid Novruz Aslanov adına tam orta məktəbə gələn qonaqlar sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə maraqlanıb, müəllim və şagirdlərlə həmsöhbət olublar.

Məktəbə müxtəlif hədiyyələr və kompüter dəsti təqdim edilib. Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məscidlə tanışlıq da qonaqlarda unudulmaz təəssürat yaradıb. Daha sonra nümayəndə heyəti Cocuq Mərcanlıda düşmənlə təmas xəttindəki postlarda növbə çəkən əsgərlərlə görüşüb, onların xidmət şəraiti ilə yaxından tanış olublar. Əsgərlərimizin döyüş ruhunun yüksək olması qonaqlarda qürur hissi yaradıb.

## Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi Ağcabədidə böyük təntənə ilə qeyd olunub

Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi Ağcabədi rayonunda böyük təntənə ilə qeyd edilib.Tədbir iştirakçılarının bir qrupu Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzərək, Onun əziz xatirəsini yad ediblər. “Qızıl Saray” Şadlıq Evində keçirilən tədbir Azərbaycanın Dövlət Himninin səslənməsi ilə başlanıb. İlk öncə YAP Ağcabədi rayon təşkilatı qadınlar şurası tərəfindən Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi münasibətilə hazırlanmış videofilm nümayiş etdirilib.



Tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, bu günlər ölkəmizin hər yerində 700 mindən artıq siyasi həmfikri öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi qeyd edilir:” Bu əlamətdar gün təkcə partiyada deyil, xalqımız tərəfindən, Vətənini, dövlətini sevən, onun bu gününə, sabahına və xoşbəxt gələcəyinə inanan bütün vətəndaşlar tərəfindən yüksək bayram əhval-ruhiyyəsi ilə qarşılanır.

R.Əhmədov YAP-ın Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, bu gün təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da qəbul olunan nüfuzlu siyasi partiya olduğunu vurğulayaraq, diqqətə çatdırıb ki, məhz bu siyasi təşkilatın beynəlxalq aləmdə nüfuzlu siyasi partiyalar tərəfindən qəbul edilməsinin səbəbi də onun xalqına söykənməsi və xalqdan qidalanmasındadır: “Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə YAP bundan sonra da Azərbaycan xalqı qarşısında xidmətini davam etdirərək, həmişə Azərbaycan xalqının partiyası olaraq qalacaqdır.

Tədbirdə Ağcabədi rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Şahin Məmmədov çıxış edərək, YAP-ın yaranması, siyasi mübarizələrdə mətinləşməsi və müstəqillik yollarında ölkənin ictimai həyatında oynadığı roldan danışıb: “Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi xəttin ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev tərəfindən uğurla davam etməsi, ölkəmizin beynəxalq aləmdə nüfuzunun artmasına, ölkə iqtisadiyyatının güclənməsinə, əhalinin maddi rifah halının yüksəlməsinə səbəb olub. Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiqliyi, xalq və dövlət qarşısında xidmətləri onun cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirib, ümumxalq partiyası olduğunu təsdiqləyib.”

Tədbirdə Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi münasibətilə keçirilən müsabiqə və yarış qaliblərinə Fəxri Fərmanlar və hədiyyələr, partiya işində səmərəli fəaliyyətinə görə, YAP fəallarına Fəxri Fərmanlar, YAP sıralarına daxil olan bir qrup gəncə isə partiyanın vəsiqələri təqdim edilib.

Tədbirdə Milli Məclisin deputatı Tahir Rzayev çıxış edərək, tədbir iştirakçılarını təbrik edib və siyasi fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Tədbir Ağcabədi Regional Mədəniyyət və Turizm İdarəsi tərəfindən hazırlanmış bədii proqramla davam etdirilib.

**ZÜMRÜD**

## Mətbuat Şurası “reket” jurnalistlərlə mübarizədə cəmiyyətin dəstəyinə və qanunçuluğun gücünə arxayındır

*Azərbaycan Mətbuat Şurasının məlumatı*

Azərbaycan Mətbuat Şurasının “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyasının 8 noyabr 2017-ci il tarixli iclasından sonra adlarının “qara siyahı”ya əlavə edilməsi tövsiyə olunan kütləvi informasiya vasitələrinin bir qrupu tərəfindən Şuranın İdarə Heyətinin üzvlərinə qarşı xoşagəlməz kampaniyaya start verilib. Bu kampaniyaya adları “qara siyahı”da yer alan bəzi informasiya orqanlarının qoşulması da diqqət çəkməkdədir.

MŞ təmsilçiləri barədə qərəzli, həqiqətəuyğun olmayan materiallar, hədələyici anonslar yayımlanmaqda, müxtəlif sosial şəbəkələrdə paylaşılmaqda, real və saxta profillər vasitəsi ilə verilən şərhlərdə böhtanlara, açıq təhqirlərə üstünlük verilməkdədir.

Azərbaycan Mətbuat Şurası bildirir ki, “qara siyahı”ya daxil edilmə peşə prinsiplərinə laqeyd yanaşan, onları mütəmadi pozan, tövsiyə və iradlara məhəl qoymayan, ümumən etik dəyərlərə zidd davranış və hərəkətlərə yol verən KİV-ə qarşı ictimai məzəmmət və ictimai qınaq tədbiridir. Şura qurumun Nizamnamə tələblərini rəhbər tutaraq mediada hədə-qorxu və şantajla müşayət edilən yazıları və ya məqalələri qarşı tərəfə - hüquqi, yaxud fiziki şəxsə təsir vasitəsi sayır. Buna görə də “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyası çıxardığı məlum rəyində tam haqlıdır. Təəssüf ki, bəzi KİV və onların jurnalist adına iddia edən rəhbərləri məsələnin mahiyyətini düzgün qiymətləndirməyəcək qədər bəsit fəaliyyət yolundan əl çəkmirlər.

Komissiya rəyə gələrkən, həmçinin peşə fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri şikayət(lər) doğurmuş KİV-in yazılarında tənqid obyektinə çevrilmiş şəxslərə münasibətdəki forma və metodları əsas götürüb. Bu forma və metodlar isə tam spekulyativ təbiətə malikdir.

Guya şəhid ailələrinin hüquqlarını qorumaq, hansısa ədalətsizliyin qarşısını almaq məqsədi ilə onların adından ölkə rəhbərliyinə aramsız müraciətlərin yayımlanması, eyni şəxslərin hədəfə götürülməsi (bəzən barələrində bir gündə iki və daha çox materialın yayımlanması), özlərinə yaxın media vasitələri ilə “korporativ həmrəylik” (eyni şəxs barədə beş-on saytda eyni materialın yayımlanması), müəyyən təmənna müqabilində məsələni həll etmə imkanlarının mövcudluğuna dair tənqid obyektlərinə ünvanlanan açıq və qapalı eyhamlar, qanunsuz tələblərin yerinə yetirilməsi üçün şikayət müəllifləri kimi göstərilən şəxslərlə sövdələşmələr, milli ayrıseçkilik zəminində ittihamlar və sair belə yarıtmazlıqlar kifayət qədərdir. Bütün bunlar əslində “reket” sözünə sırf hüquqi prizmadan yanaşmaq üçün də ciddi əsaslar yaradır. Mətbuat Şurasının fəaliyyəti timsalında Azərbaycan mediasının saflaşmasına yönələn işlər eyni zamanda ictimai əhəmiyyətlidir. İndiyədək həqiqi qələm sahibləri, peşənin təəssübünü çəkən jurnalistlər tərəfindən prosesə böyük dəstək göstərilib. İnanırıq ki, bu dəstək bundan sonra da olacaqdır. Hədə-qorxu mesajları ünvanlayanlar, təhqir və böhtan yağdıranlar isə anlamalıdırlar ki, Şura onlarla mübarizədə həm geniş cəmiyyətin dəstəyinə, həm də qanunçuluğun gücünə arxayındır.

Mətbuat Şurasının üzvlərinə münasibətdə nalayiq davranışlar bütövlükdə bu qurumu formalaşdıran həqiqi peşə sahiblərinə, təəssübkeş qələm əhlinə, media cameəsinin daşıdığı bəşəri dəyərlərə həqarət kimi qiymətləndiriləcək, layiqli cəzasını alacaqdır. Şura mübarizəsində haqlıdır və heç bir halda haqlı mövqeyindən geri çəkilməyəcəkdir. Buna hər kəs əmin olsun, xəbərdarlıqdan düzgün nəticə çıxarsın.

## Mobil zəng xidmətləri testlərinə əsasən, “Nar” şəbəkəsi ölkədə ən yüksək nəticə göstərdi

***Yarandığı ilk gündən abunəçilərinə təqdim etdiyi sərfəli qiymətlərlə seçilən “Nar” özünün mobil rabitə şəbəkəsini təkmilləşdirməyə davam edir. 2017-ci ilin 2-ci rübündə mobil rabitə şəbəkələrinin müqayisəli testləri keçirilib və “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Mobil rabitə şəbəkələrinin sınaqları mühəndislik və test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət kimi tanınan “P3 Communications” tərəfindən keçirilib.***

Mobil rabitə şəbəkələrinin müqayisəli testləri Azərbaycanın müxtəlif bölgələrində yerləşən şəhər, kənd, qəsəbə və magistral yollarda aparılıb. Tamamilə səyyar test şəklində təşkil edilmiş bu sınaqların 55%-i Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan və Quba kimi şəhərlərdə, digər hissəsi isə Xırdalan, Lənkəran, Qəbələ, Xaçmaz kimi daha kiçik şəhərlər, eləcə də şəhərlərarası yollarda təşkil edilib. “P3 Communications” şirkətinin apardığı sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanır.

Qeyd edək ki, “Nar” 2017-ci il ərzində mobil rabitə şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli layihələr həyata keçirib. Bir müddət öncə mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində mobil telefon vasitəsilə ünsiyyətdə olarkən səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını təmin edən “HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib. Məhz bu kimi addımlar sayəsində, aparılmış test nəticələrinə görə “Nar”-ın zəng xidmətləri üzrə ölkədə ən yaxşı mobil rabitə operatoru olduğu qəbul edilib.



Belə ki, şəbəkənin əhatə dairəsinin genişlənməsi, mobil zəng və internet xidmətlərinin keyfiyyətnin artırılması məqsədilə bütün ölkə ərazisi boyunca baza stansiyalarının sayı əhəmiyyətli dərəcədə artırılıb. 3G şəbəkəsində aparılan təkmilləşdirmə işləri çərçivəsində ATM texnologiyalı transmissiya xətləri üzərindən işləyən 3G baza stansiyalarının sayı üç dəfə azaldılıb və müasir tələblərə cavab verən IP texnologiyasına əsaslanmış transmissiya xətləri ilə əvəz edilib. Baza stansiyalarının IP transmissiya zolağı boyunca “Son məntəqələr arasındakı tutum” (Last Mile Capacity) 2016-cı ilin son günü ilə müqayisədə şəbəkə üzrə ümumilikdə 53% artıb.

### “Nar”

“Azerfon” şirkəti 21 mart 2007-ci ildə “Nar Mobile” ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

### “P3 Communications”

“P3 Communications” 3300 nəfərdən artıq əməkdaşla dünya üzrə fəaliyyət göstərən və 2016-cı ildə təqribən 340 milyon avro dövriyyəsi olan aparıcı beynəlxalq konsaltinq, mühəndislik və test xidmətləri şirkətidir. Sırf telekommunikasiya sahəsi ilə əlaqədar olaraq “P3 Communications” geniş mənada müstəqil texniki və menecment-konsaltinq xidmətləri göstərir. Şəbəkənin planlaşdırılması, mühəndislik, hərtərəfli optimallaşdırma, təhlükəsizlik, xidmət keyfiyyəti (QoS) və xidmətlərin faktiki keyfiyyətinin (QoE) sınaqları, beynəlxalq bençmarkinq və cihazların sınaqdan keçirilməsi məhz belə xidmətlərdəndir. “P3 Communications” şirkətinin müştəriləri arasında dünya miqyaslı şəbəkə operatorları, avadanlıq təchizatçıları, cihaz istehsalçıları, ictimai təhlükəsizlik qurunları və tənzimləyici orqanlar vardır. Uzunmüddətli menecment təcrübəsinə malik şirkət ekspertləri ən son texniki “know-how” nailiyyətlərini tətbiq edirlər. Daha ətraflı məlumatı nar.az və p3-group.com internet səhifələrindən öyrənmək olar.

# Mübariz Əhmədoğlu: “Ermənistan tələbələri Serj Sarkisyan adlı eşafotda növbəyə dayanıblar”

***“Ermənistanda tələbələr hərbi xidmətdən möhlət hüququnun ləğvinə etiraz olaraq ayağa qalxıblar”. Bu fikirləri Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin direktoru Mübariz Əhmədoğlu son günlər işğalçı ölkədə erməni tələbələrinin etiraz aksiyaları keçirmələrini şərh edərkən bildirib. Onun sözlərinə görə, erməni tələbələr bu günədək təhsil naziri və baş nazirlə görüşüblər.***



Lakin bu görüşlər Serj Sarkisyanın hiyləgərliyinin tərkib hissəsidir. SİTAT: “Baş nazir və nazirlərin bu tələbələri qəbul etmələri tələbə aksiyalarını ləğv emək istiqamətində Serj Sarkisyan hiyləgərliyinin birinci layı kimi qəbul edilməlidir. Görüşlər, o cümlədən, güclü ritorikaya malik baş nazirlə də görüş tələbələri öz iddiasından geri qaytarmadı. Belə olan halda, artıq Ermənistan prezidentinin hiyləgərliyinin ikinci layı başlayır: guya hərbi xidmətdən möhlət hüququnun ləğvindən S.Sarkisyanın xəbəri olmayıb. Parlamentdə belə fikirlər səslənir. Ermənistanın müdafiə nazirinin müavinlərindən birinin verdiyi bəyanat da təxminən S.Sarkisyanı vəziyyətdən xilas etməyə yönəlib”.

### “Baş verənləri Sarkisyanın üç laylı hiyləgərliyinin iki layının reallaşması kimi qəbul etmək olar”

“Əvvəla, Ermənistanda Sarkisyanın iradəsi olmadan heç kim belə qərar qəbul edə bilməz”-deyə qeyd edən politoloqa görə, ikinci məsələ müdafiə naziri Vigen Sarkisyanın uzun müddət S.Sarkisyan administrasiyasının rəhbəri olduğunu xatırladıb: “V.Sarkisyan bütün addımlarını prezident Sarkisyanın oyununa uyğunlaşdırır. Ona görə V.Sarkisyan S.Sarkisyanla məsləhətləşmədən belə konsepsiyanı ortalığa qoymazdı. Üçüncü və ən böyük arqument: S.Sarkisyan rəsmi surətdə bu konsepsiyanı müdafiə etdi. Ona görə baş verənləri Sarkisyanın üç laylı hiyləgərliyinin iki layının reallaşması kimi qəbul etmək olar”.

M.Əhmədoğlu hesab edir ki, S.Sarkisyan hiyləgərliyinin üçüncü layını başa düşmək üçün “Sasna srer” hadisələrində baş verənləri xatırlamaq lazımdır. Belə ki, S.Sarkisyan tərəfindən vasitəçilər göndəriləcək, yerli və xarici bəzi elm adamları işə salınacaq, tələbələrin valideynləri ilə söhbətlər aparılacaq. Yumşalma yaranan kimi güc strukturları fəaliyyətə başlayacaq, aktiv tələbələr həbs olunacaq və “Sasna srer”də vəd verən və sonradan vədini unutduğu kimi, S.Sarkisyan tələbələrə və onların valideynlərinə verdiyi vədləri də unudacaq. “Nəticədə, bir neçə erməni gənci həbsxana həyatı keçirməli olacaq. Ermənistan tələbələri S.Sarkisyan adlı eşafotda növbəyə dayanıblar”-deyə politoloq şərhində bildirib.

### “Vəziyyət belə davam edərsə, 50 yaşadək qadınlı-kişili Ermənistan vətəndaşlarının ikinci məcburi hərbi xidmət məsələsi aktuallaşacaq”

“Azərbaycandan baxanda, bəlkə də bunları müsbət dəyərləndirmək olar”-deyən Mübariz Əhmədoğluya görə, S.Sarkisyan tələbələri ayağa qaldıran səbəbi dərk etmək istəmir: “S.Sarkisyan başa düşmək istəmir ki, tələbələri belə vəziyyətə gətirib çıxaran əhalinin miqrasiyasıdır və əhalinin indiki miqrasiyanın səbəbi S.Sarkisyanın son 10 illik prezidentliyi dövrüdür və bundan da sonra S.Sarkisyan, hətta hakimiyyətdən gedəcəyi, reallaşdırdığı kursun dəyişəcəyi təqdirdə belə, yenə 5-6 il Ermənistanda demoqrafik vəziyyət normallaşmayacaq. Vəziyyət belə davam edərsə, 50 yaşadək qadınlı-kişili Ermənistan vətəndaşlarının ikinci məcburi hərbi xidmət məsələsi aktuallaşacaq.

Azərbaycanın xeyrinə olan budur ki, Sarkisyan özü hansı siyasət apardığını dərk edə bilmir. Bəlkə də heç bir azərbaycanlı Ermənistanı belə çətin vəziyyətə sala bilməzdi, o vəziyyətə ki, S.Sarkisyan salıb. Biz Azərbaycanın gördüyü işi və beynəlxalq ictimaiyyətin Azərbaycanın mövqeyini dərki istiqamətində müsbətə tərəfə dəyişməsinin uğurunu inkar etmirik. Amma o da inkaredilməz faktdır ki, bu günkü Ermənistanın ən böyük problemi Ermənistanın özünün daxilindədir.

Azərbaycan torpaqlarının işğalı davam etdikcə, Ermənistan yalnız geriləyəcək. Geriləmə yalnız Ermənistan dövlətçiliyi sıradan çıxanda dayanacaq”.

*Rövşən NURƏDDİNOĞLU*

# Ermənistan 2018-ci ilə boş büdcə ilə gedir

## *Bu, Sarkisyan rejiminin sonu deməkdir*

***Artıq 2017-ci illə 2018-ci ilin qovuşmasına çox az vaxt qalıb. Qarşıdakı ilə qədəm qoyanda geridə qoyulan ildə əldə olunan uğurlar və bundan sonrakı hədəflərin nələr ola biləcəyi barədə geniş müzakirələr aparırlar.***



Bu baxımdan da faktlar belə deməyə əsas verir ki, Ermənistanda vəziyyət dəhşətli həddə çatıbdır. İl ərzində ölkə miqyasında heç bir uğur, nəzərəçarpacaq irəliləyiş, nailiyyət əldə edilməmiş, 2017-ci ildə ölkə uçurumun kənarlarınadək sürüklənib və kriminal vəziyyət dözülməz həddə çatıbdır. Yoxsulluqdan, işsizlikdən təngə gələn əhali kütləvi şəkildə ölkəni tərk etməyə başlamış, qarşıdurmalar, toqquşmalar fonunda siyasi qeyri-müəyyənlik davam etmiş, korrupsiya, qanunsuzluq çoxalmış, maddi-texniki təminatdan məhrum edilən orduda ölüm halları xeyli artıbdır.

### 2017-ci il Ermənistan üçün çox qarışıq və uğursuz il olub

Düşmən ölkədəki vəziyyəti daha yaxşı analiz etmək üçün statistik rəqəmlərə diqqət yetirmək kifayətdir. Rəsmi rəqəmlərə görə, 2013-cü ildə Ermənistan əhalisinin 41 faizi yoxsulluq səviyyəsindən də aşağı həddə yaşadığı halda, bu rəqəm bu il artaraq, 52 faizə yüksəlibdir. Ermənistanda sabit gəliri olmayan 280 minə yaxın insan var ki, onlar rəsmi statistikada işsiz sayılmırlar. Fəqət, bu inspanların ailələrində adambaşına düşən gəlir minimal yaşayış təminatı həddindən də aşağı olduğundan, onlar ifrat yoxsul sayıla bilərlər. Həmin rəqəmləri də 52 faizin üzərinə əlavə etsək, onda belə çıxır ki, ölkə əhalisinin demək olar ki, yarısı dilənçi vəziyyətində yaşayır. Bu isə sosial-iqtisadi vəziyyətin kifayət qçədər gərgin olduğunu göstərir.

Bu gün artıq beynəlxalq təşkilatlar da Ermənistanda bu faktı təsdiqləməklə yanaşı, korrupsiyanın tüğyan etdiyini, bu bəlanın ölkəni fəlakətə sürüklədiyini, əhalinin geniş təbəqəsinin bundan son dərəcə əziyyət çəkdiyini, narazı qaldığını dilə gətirir, belə gedərsə, 2018-ci il ərzində sosial partlayışın qaçılmaz olacağını qeyd edirlər. Gələk Ermənistan büdcəsinə.

### <u>Ermənistan - 2018:</u> gəlirlər azalacaq, qiymətlər artacaq

“Arntimes” portalında müəllif Ayk Gevorkyan Ermənistanın gələn ilin ilk günündən etibarən Ermənistanda əsas malların qiymətində artım gözlənildiyini bildirib. Ermənistan hökumətinin ən böyük problemi isə xarici borcla bağlıdır. Məsələ bundadır ki, ölkənin xarici borcu azalmaq əvəzinə, daim artmaqdadır və bu borcu ödəmək ildən-ilə daha çox məbləğ tələb edir. Lakin bütün bunlara, yəni Ermənistanın xarici borcunun ildən-ilə artmasına baxmayaraq, hakimiyyət büdcə kəsirini doldurmaq üçün borc siyasətini davam etdirir.

Ayk Gevorkyan Ermənistanın xarici borcunun artıq 6 milyard dolları ötdüyünü bildirib. Müəllif qeyd edir ki, Ermənistan borc ilə yaşayan dövlətlər siyahısına daxil olub ki, bu da onun müstəqil siyasət aparmasına imkan vermir. Müəllif qeyd edir ki, 2020-ci ildə Ermənistanın dövlət büdcəsi 3 milyard dollar olacaq ki, bunun 1 milyard 500 milyonunu borclarına ödəyəcək.

Bunu Ermənistanın baş naziri Karen Karapetyan ölkə parlamentində “2018-ci il üçün Ermənistan Respublikasının dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı bildirib: “Hazırda, ölkədəki cari inkişaf ümidverici görünsə də, buna baxmayaraq, bu, uzunmüddətli yüksək iqtisadi artımın əsasları üçün kifayət qədər güclü deyil”.

### Pessimist proqnozlar

Beləliklə, deyilənlər, bir daha onu göstərir ki, Ermənistanı daha böyük problemlər gözləyir. Bütün bu neqativ vəziyyətin fonunda Ermənistan əhalisinin reallığı dərk edən kəsimi artıq S.Sarkisyan iqtidarına əlvida deməyin vədəsinin çatdığını hiss etdiyindən, küçələrə axışaraq pozulan hüquqlarını, nəyin bahasına olursa-olsun, bərpa edəcəklərinə ümid edir.

*A.SƏMƏDOVA*



# KOR KORA KOR DEMƏSƏ...

**<u>RƏFİQƏ</u>**

***Atalarımızın gözəl deyimləri var. “Çörəyi dizinin üstündə” deyimi Xədicə İsmayılı, uzun illərdən bəri yan-yörəsində fırfıra kimi fırlandığı AXCP sədri Ə.Kərimlinin “siyasi məhbus” biznesi ilə bağlı sosial şəbəkələrdə işlətdiyi ifadələr, “cin” atına mindirib, özü də necə?! Xədicə də, etmə tənbəllik, facebook səhifəsində Ə.Kərimliyə “sensasiyalı” tərzdə cavab verib və bildirib ki, “hakimiyyətə işləyir”. “Yenə də bu deyimi deməliyəm, ay Xədicə, “kor kora kor deməsə, bağrı çatlar”. Düşünəndə ki, ay balam, axı bu iki radikal müxalifət qarğası xeyli zamandır ki, Azərbaycanın milli-maraqlarına qarşı birgə qarıldayıblar, bax, onda bir azca fikirləşməyə başlayırsan və fikirləşməyə başlayırsan ki, əcəba, məgər Xədicə İsmayıl bu vaxta qədər Ə.Kərimlinin haraya işlədiyini bilməyibmi? Və yaxud da, bilibsə də niyə gizlədib? Bax, buna görə deyirəm ki, sualın cavabını heç vaxt eşitməyəcəyik. Çünki bu suala cavab vermək Xədicəyə, əsla, sərf etmir.***

Düzdür, Xədicə Ə.Kərimlini ittiham edərkən, ona qarşı irəli sürdüyü iddiasının birbaşa ona ünvanlanmasını gizlətmək məqsədilə, adının yanına Müsavatın başqanı A.Hacılının, SDİ-nin direktoru L.Yunusun, müsavatçıların sabiq başqanı İsa Qəmbərin də adını əlavə edib. Özü də necə? Necəsi odur ki, biclik işlədib ki, sabah cəbhəçilər nəyə görə onun məhz AXCP sədrini hədəfə aldığını soruşmasın. Ay Xədicə, sən özün deyirsən ki, qarğa, məndə qoz var.

Gəlin Xədicənin həmin fikirlərinə bir daha nəzər salaq: “Bu adamlar və təşkilatlar hökumətə yaxındır, hökumətdən maliyyələşir. Misal üçün, A.Hacılı, Ə.Kərimli hökumətlə gizli əməkdaşlıq edir. Digər tərəfdən isə, bu şəxslərin təşkilatları pul müqabilində istənilən adama “siyasi məhbus” adı verir, hökumətin siyasətinə “don” geyindirir və sairə. Həmçinin, L.Yunus, Ə.Kərimli, A.Hacılı və İ.Qəmbər “mühacir biznesi” ilə məşğuldur”. Bu yerdə ay Xədicə, yenə də deyirmə : kor kora kor deməsə...”

**Beləliklə, Xədicənin bu adlar arasındakı əsas hədəfinin, Ə.Kərimli olması gün kimi aydındır!**

Məsələn, aydındır ki, Xədicə üçün, ümumiyyətlə, istənilən şəxsə qarşı aşkar siyasi fahişəlik, yaxud şərəfsizlik timsalında xəyanət etmək elə də çətin iş-filan deyil. Bir halda ki, o, çox rahat şəkildə dövlətin, millətin maraqlarını Qərbdə fəaliyyət göstərən anti-Azərbaycan xarakterli dairələrə, onlarla əlbir olan erməni lobbisinə satırsa, deməli, adi insanlara qarşı eyni cür davranmaq ona heç də vicdan sızıltısı vermir. Məsələnin köklü mahiyyəti isə ondadır ki, uzun müddətdir “siyasi məhbus” məsələsində Ə.Kərimli ilə anlaşa bilməyən Xədicə İsmayıl sonra da anlaşmanın, ümumiyyətlə baş tutmayacağını və onu “baqaja” qoymaq planını işlədəyəcəyini bildirib və reallığa qalanda Xədicənin Kərimlini “baqaja” qoyması arxasında onun özünün də marağı var.

“İştaha diş altındadır” deyiblər. Pul iyi gələndə, Xədicə Əlidən, Əli də Xədicədən keçməyə hazırdır və kim öz siyahısını “donorlara” sırıya bilsə, Molla Nəsrəddin demiş, “o çaldı”.

TƏRS BAXIŞ

# ADP-dən AXCP-yə ittihamlar atəşinə start verildi

## *Sərdar Cəlaloğlu: “Ölənə qədər Elçibəy Əli Kərimlini yaxına buraxmamışdı”*

**2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ərəfəsində dağıdıcı müxalifətin “qazanı” yenidən qaynamağa başlayıb. Belə ki, müxtəlif cinahlarda yer almış və barışmaz düşmənlər olaraq bir-birinə qarşı aqressiya üsulu ilə hücumlar edən tərəflər qarşıdan gələn seçki ilində bacardıqca xal toplamağa cəhdlər göstərirlər. Xüsusilə, AXCP sədri Ə.Kərimlinin “Milli Şura”da təmsil olunmayanları xəyanətkar və satqın elan etməsi faktoru, bu günün özündə də, ona dəstək verməyən müxalifətçiləri qıcıqlandırmaqdadır.**



### “Bir təşkilata liderlik edə bilməyən insan müxalifətin necə lideri ola bilər?”

Bu arada, ADP sədri Sərdar Cəlaloğlu növbəti dəfə AXCP-ni, Ə.Kərimlini və “Milli Şura”nı, eyni zamanda, kəskin ittiham atəşinə tutub. O, Kərimlinin özünü müxalifətin “lideri” elan etməsini, digər müxalifətçiləri isə “satqınlar və hakimiyyətə işləyənlər” adlandırmasını sərt şəkildə cavablandırıb. “Ə.Kərimli müxalifətin lideri deyil. O, heç AXCP lideri ola bilmədi”-deyə qeyd edən Cəlaloğluya görə, məhz Elçibəyin ölümündən sonra partiya parçalandı və bunun da əsas baiskarı, bilavasitə Ə.Kərimlidir. SİTAT: “Ə.Kərimlinin əlində qalan hissə 6-7 yerə dağıldı. Bir təşkilata liderlik edə bilməyən insan müxalifətin necə lideri ola bilər? Bütün bunlar onun hakimiyyət hərisliyini göstərir. O, müxalifətdə qalmağından özünə hakimiyyət düzəltmək istəyir”.

### “Elçibəyin müavini ola-ola Etibar Məmmədovla saziş imzalamışdı”

Ümumiyyətlə, Azərbaycan müxalifətində Ə.Kərimli qədər xəyanətkar, riyakar və həyasız insanın olmadığını aşkar şəkildə dilə gətirən ADP sədri bu gün onun “Milli Şura”dan imtina edən müxalifətçiləri təhqir etməsini qeyri-insanlıq adlandırıb və AXCP sədrinə öz keçmişini xatırlamağı məsləhət görüb: “Bizi tənqid edənlər keçmişə nəzər salsınlar. Ə.Kərimli deyir ki, Elçibəy liderimdir. Qeyd edim ki, ölənə qədər Elçibəy onu yaxına buraxmamışdı. Çünki ona sağlığında xəyanət etmişdi. 1998-ci ildə seçkilər boykot ediləndə, Elçibəyin müavini ola-ola Etibar Məmmədovla saziş imzalamışdı. Öz fikirlərini diktə etdirmək üçün Xalq Cəbhəsinin daxilinə “yurdçu”lar salmışdı. Ə.Kərimli müxalifətin bir neçə birliyini parçalayıb, parlamentdən yer alan şəxsdir. O, 1,2% səs toplamaqla, 6 deputatla təmsil olundu”.

### “Sosial şəbəkələrdə mənə qarşı “meyityaran” kimi ifadələr işlətdirir”

S.Cəlaloğlu bu gün özünü “müxalifətin lideri” kimi təqdim edən Kərimlinin, ümumiyyətlə, cameəyə necə sırınmasını xatırladıb və hansı səbəbdən, hələ də şəxsiyyət vəsiqəsi ala bilməməsi sualını edib. SİTAT: “Bu adamın hərəkata gəlməsinin özü necə olub? Onu universitetdən meydana göndərən komsomol katibi kimdir? Hansı məqsəd və tapşırıqla göndərib? Elə bilirlər ki, hər şey unudulub. Zənn edirlər ki, kim hakimiyyəti söyürsə, müxalifət odur. Səndə bu güc, qüdrət varsa, nə əcəb şəxsiyyət vəsiqəni ala bilmirsən? Sən öz hüququnu qoruya bilməyən bir insansan. Guya ki, hüquqşünassan. Ə.Kərimli gəlsin, üzbəüz danışaq. Sosial şəbəkələrdə mənə qarşı “meyityaran” kimi ifadələr işlətdirir. Bütün vəzifələr şərəflidir”.

Beləliklə, Ə.Kərimlini satqınlıqda ittiham edən və əslində, həqiqi satqının AXCP sədri olduğunu deyən S.Cəlaloğlu müxalifətin çıxılmaz vəziyyətə düşməsinin baiskarının birbaşa Ə.Kərimli olduğunu vurğulayıb. Misal üçün, 2003-cü ildə Müsavatın sabiq başqanı İ.Qəmbərin namizədliyi məsələsində Ə.Kərimlinin hansı oyunlar oynadığını xatırladan ADP sədri bildirib ki, həmin vaxt satqının kim olduğu üzə çıxdı - o, AXCP sədri Ə.Kərimli idi. “Orada da satqın olduğunu göstərdi”-deyə qeyd edən Cəlaloğlu bildirib: “Əli, gecə-gündüz 5-10 nəfər tərbiyəsizə məni söydürür, ordaburda palaz-palaz yazılar dərc etdirirsən. Bəzən bu əxlaqsız sözlərə cavab verməyə məcbur oluram”.

Göründüyü kimi, müxalifətin kifayət qədər tanınmışlarından olan ADP sədri S.Cəlaloğlu da boş dayanmayaraq, zaman-zaman AXCP sədri Ə.Kərimlinin iç üzünü açır. Görünür, bu dəfə Kərimlinin işi çətin olacaq. Çünki ona qarşı nifrət bəsləyən müxalifətçi yalnız ADP sədri deyil, digər müxalifət partiya rəhbərləri də artıq bu adamdan cana yığılıblar. Hər halda, seçkilər ili yaxınlaşdıqca, müxalif cameədə vəziyyət daha da gərgin hal almağa başlayır.

***Rövşən NURƏDDİNOĞLU***

## Azərbaycanın elektrik enerjisi ixracı 2 dəfəyədək artıb



Bu ilin ilk on ayında Azərbaycandan 843 milyon 841 min kilovat/saat elektrik enerjisi ixrac olunub. Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumata görə, yanvar-oktyabr aylarında ölkənin elektrik enerjisi ixracı 2016-cı ilin analoji dövrü - 449 milyon 938 min kilovat/saat ilə müqayisədə təxminən 2 dəfəyədək artıb.

Hesabat dövründə ixrac olunan elektrik enerjisinin dəyəri isə 37 milyon 259 min ABŞ dolları təşkil edib.



## Xam neft Azərbaycanın ümumi ixracının 72, təbii qaz isə 11 faizini təşkil edib

Cari ilin yanvar-oktyabr aylarında xam neft ixracı Azərbaycanın ümumi ixracının 72,22 faizini, təbii qaz 11,06 faizini, neft məhsulları isə (2710 mal kodu üzrə) 2,96 faizini təşkil edib. Bu barədə Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumatda deyilir.

## Azərbaycandan 686 min ton neft məhsulları göndərilib

Cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan 686 min 7 ton (2710 mal kodu üzrə) neft məhsulları ixrac edilib. Hesabat dövründə ixrac edilən neft məhsullarının dəyəri isə 268 milyon 227 min ABŞ dolları olub. Bu barədə AZƏRTAC-a Dövlət Gömrük Komitəsindən (DGK) məlumat verilib.

# “Rəsul Quliyev qorxağın yekəsidir”



**Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri və millət vəkili Elşən Musayevdir**

***- Elşən müəllim, son vaxtlar bir-birinə düşmən kəsilən müxalif partiya funksionerləri arasında isti münasibət yaranmağa başlayıb. Sizcə, bunun prezident seçkilər ilə hər hansı bir formada əlaqəsi ola bilərmi?***

- Bilavasitə, əlaqəlidir. Amma koordinasiya başqa mərkəzdəndir. Bunların hamısının pul aldığı dairələr var ki, həmin təşəbbüsü də onlar irəli sürüb. Yəni təlimat veriblər ki, ya pul kəsilir, ya da heç olmasa, düşmən səviyyəsində olmayın. Ona görə yiyələrinin və “boss”larının xahişi ilə eyniadlı mənzərəni yaradıblar. Amma buna təəccüblənməyin. Azərbaycanın ənənəvi-radikal müxalifətidir bu. Həmişə də “Fatı otur, Fatı dur” prinsipi ilə hərəkət ediblər.

***- Rəsul Quliyev Bakıya qayıdacağını və müxalifətin “vahid namizədi” olaraq, prezident seçkilərinə qatılacağını bəyan edib. Sizcə, onun Bakıya gəlib öz iddiasını reallaşdırmaq imkanı varmı?***

- Rəsul Quliyevin məşhur “badbaxt” sözü indi ən çox onun özünə yaraşır. Nə müxalifət, nə “vahid namizəd”? Müxalifətin özü varmı ki, hələ bir onun “vahid namizədi” də olsun? Hamısı utopiyadır, qabaqdangəlmişlikdir. Əvvəl deyirdi, nəyin bahasına olursa-olsun, gəlirəm, indi də deyir “vahid namizəd” olsam, gələrəm? Nə məntiqdir bu? Yəqin sabah da deyər ki, hava yaxşı olsa və ya gün çıxsa gələrəm. R.Quliyevin 2005-ci ildə hansı rüsvayçılıqla yarı yoldan geri qayıtmasını kim unudub ki? Ola bilər, bəlkə özü unudub. Amma xalq unutmayıb. Çünki yaxın keçmişdi. Hətta o vaxt müxalifətdən bəzi adamlar da Ukraynaya pişvazına getdilər ki, ayıbdı, dur gəl Bakıya, yekə kişisən. Yenə qayıtmadı, qorxaqlığı seçdi. İndi qəhrəman olmaq eşqinə düşüb? Onun iddiası yoxdur, ambisiyası var. Öz də çürük ambisiyadır. Heç zaman da reallaşmayacaq. Rəsulun dövrü çoxdan bitib. Gedib 25 ildir yaşadığı Amerikada hələ bir düz əməlli-başlı ingilis dilini öyrənsin, sonra daha böyük iddialarını ortalığa qoyar.

***- Necə düşünürsünüz, İsa Qəmbər və Əli Kərimli kimi böyük iddialı müxalif partiya sədrləri olduğu bir məqamda, Rəsul Quliyevin müxalifətin namizədi kimi çıxış etməsi nə dərəcədə mümkündür?***

- Əslində, Bakıya gəlsə, bunu reallaşdıra bilər. Hərflərinin sayı üzvlərinin sayından çox olan 3-4 partiya tapacaq, deyəcək bunların “vahid namizədi”yəm. O adam avantüristin təkidir, nə desən edər. Sadəcə, məsələ burasındadır ki, onda Bakıya qayıtmağa təpər yoxdur. R.Quliyev qorxağın yekəsidir. İndi bu cür qorxaq adam seçkilərə görə qayıdacaq? Yox, təbii. Şayiədir, özü buraxır və ictimai rəyi yoxlayır.

***- Son vaxtlar qondarma hüquq müdafiəçiləri Xədicə İsmayıl və Leyla Yunus Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlarını daha geniş şəkildə işlətməyə başlayıblar. Sizcə, bunun arxasında “Soros” və digər qərəzli təşkilatların dayandığını demək olarmı?***

- Xədicə İsmayılla Leyla Yunus hüququn deyil, erməninin və erməni lobbisinin müdafiəçiləridir. “Soros” Fondu da onların əsas qeyyumlarından biridir. Fəaliyyət köklərində də Azərbaycana qarşı nə qədər qərəzli təşkilatlar varsa, hamısının sponsorluğu dayanır. Ona görə də, belələri haqda çox danışıb, nəyisə müzakirə etməyə ehtiyac yoxdur. Erməni nədirsə, onlar da odur. Erməni bizə, Azərbaycana necə nifrət edirsə, Xədicə ilə Leyla da eyni nifrəti bölüşür.

***- Maraqlıdır ki, Xədicə İsmayıl ilə Əli Kərimli arasında konfliktlərin olmasına baxmayaraq, AXCP-nin bəzi funksionerləri Xədicə İsmayıl ilə Leyla Yunusu dəstəkləyən açıqlamalar verir və fikirlər səsləndirirlər. Bunu nə ilə əlaqələndirmək olar?***

- Üzsüzlüklə, simasızlıqla. Başqa nə ilə əlaqələndirmək olar ki? Kərimli Gültəkin kimi adamı əsas silahdaşına çevirib, Xədicə ilə niyə pis olsun ki? Övladını ermənipərəst konqresmenlərin yer aldığı tədbirlərə göndərir, özü də ermənipərəstlərlə niyə oturub - durmasın ki? Bunlar marağa oynayan adamlardır. Oynadıqları maraqların da hamısı iyrəncdi.

***GÜLYANƏ***

# Azərbaycanda toy mərasiminə qədər icra olunan adətlər: qızbəyənmə

Azərbaycanda toy mərasiminə qədər icra olunan adətlər aşağıdakılardır:

1. Qızbəyənmə;
2. Elçilik;
3. Nişanlanma.

Bu adətlər içərisində qızbəyənmə adəti gələcək gəlinin seçilməsində əsas və mühüm rol oynayır. Etnoqraf-tədqiqatçı Şirin Bünyadova bu adətin xüsusi əhəmiyyət kəsb etdiyini göstərərək yazır: “Gələcək ailə həyatının qurulmasında əsas məsələlərdən biri, məhz gəlinliyə namizədin seçilməsidir. Bu, vacib məsələ kimi, ailənin evlilik planlarında hər bir dövr üçün əhəmiyyətli yer tutmuşdur. Belə ki, hər bir ailə öz daxili qaydalarına uyğunlaşa biləcək, evin tələblərinə uyğun şəkildə davranacaq və əsli-nəsli öz səviyyələrinə müvafiq olan bir qızı özlərinə gəlin seçməyi əsas şərt hesab etmişdir. Eyni zamanda, gəlin seçilən qızın sağlamlığı, təsərrüfatda yaxşı işləyə bilməsi, zirək olması və əməksevərliyi də əksər ailələr üçün vacib şərt sayılmışdır. Bütün bu deyilənlər orta əsrlər dövründə də əhəmiyyətli məsələlərdən idi.

Orta əsrlərdə evlilik məsələlərində qızların özlərinin, bilavasitə gələcək həyat yoldaşını seçmə hüququ yox idi. Bu məsələ böyüklərin məsləhəti və yaxın adamların tövsiyələri ilə həll edilirdi. Qıza söz haqqı düşmürdü”.

Əslində, burada, ümumiyyətlə, qadına münasibət məsələsi, bilavasitə özünü göstərir. Görkəmli tədqiqatçı S.A.Tokarev qeyd edir ki, ailə mənəviyyatına və cinslər arasındakı münasibətlərə islami baxışlarda patriarxal nəsli quruluşun təsiri özünü əks etdirirdi. Qadın tabe olan varlıqdır. Bununla yanaşı, Quranda qadının insani və vətəndaşlıq hüquqları da tanınır. Kişinin qadına həddsiz zülmkarlığı qınanır, mülki və irsi hüququnun olduğuna işarə edilir.

Şirin Bünyadova göstərir ki, ailədə atanın sözü əsas olsa da, lakin bu, bütünlüklə orta əsrlərdə qadınların sosial statusunun yoxluğu demək deyildir. Sadəcə, qızlar erkən yaşlarından ərə verilirdi və burada əsas qayğı anaya məxsus olurdu. Qızı razılığa gətirmək, təbliğat aparmaq və məsləhət vermək ananın öhdəsinə düşürdü.

Ailədə bütün problemləri təkcə onun başçısı sayılan kişidən asılı deyildi. Burada, eyni zamanda, evin xanımından da tələb olunan işlər vardı. Bu məsələ özünü xüsusən qızbəyənmə və elçilikdə daha qabarıq göstərirdi. Oğlan evində qızın seçilib bəyənilməsində əsas rol anaya məxsus idi.

Ailə qurulmasında elçilik adəti həlledici mərhələ hesab olunur. Hacı Qadir Qədirzadə qızbəyənmə adətinin bütün türk xalqlarında olduğunu göstərir. Elçilik adəti də bütün türkdilli xalqlarda və başqa xalqlarda icra olunan adətlərdəndir.

Ailələrdə, əsasən, qadınlar - analar və bacılar oğlan üçün qızı seçir, ya da oğlanlar özləri qızı bəyənib ailələrinə məlumat verirlər. Bundan başqa, Azərbaycan ailələrində, türk xalqlarında olduğu kimi, “deyiklilər” də olurdu. İki dost övladlarını gələcəkdə evləndirmək üçün bir növ “sövdələşirdilər”. Bu adət nadir hallarda indi də mövcuddur. Bu zaman onların - qız və oğlanın beşiklərini bir balaca kərtirdilər.

Tədqiqatçı-etnoqraf Şirin Bünyadova göstərir ki, nikah əlaqələri əksər hallarda sosial bərabərlik əsasında qurulurdu: “Bərabər zümrələr arasında nikahın rəsmiləşdirilməsi məsələsi qız bəyənilərkən də, əsas şərt hesab olunurdu. Lakin ən əsas qız anasının öz şəxsi hörməti sayılırdı. Atalar məsəllərində də deyildiyi kimi, “qırağına bax, bezini al, anasına bax, qızını al”, “Anası çıxan ağacı balası budaq-budaq gəzər”. Orta əsrlərdə seçiləcək gəlinin hansı cəhətlərinə diqqət yetirildiyi maraq doğurur. Bu barədə orta əsr müəlliflərinin əsərlərində mühüm məlumatlar mövcuddur”. Müəllif yazır ki, orta əsrin böyük mütəfəkkiri Qəzali qadında göstərilən xüsusiyyətlərin olmasını mühüm sayırdı ki, bu da aşağıdakılardan ibarətdir: din, xoşxasiyyətlilik, gözəllik, mehr yüngüllüyü, doğmaq qabiliyyəti, bakirəlik, əsil-nəsəb. Fars nəsrinin görkəmli əsəri “Qabusnamə”də də qızbəyənmə ilə bağlı məqamlar vardır. Burada deyilir ki, həyat yoldaşı seçilərkən, onda əsas xüsusiyyətlər ismət, namus, dindar, evdar, təmizkar, başıaşağı, üzüyola, əlidüz və malyığan olmasıdır. Bu, Azərbaycan xalqı ilə minilliklər boyu yanaşı yaşayan farsların vahid bir təfəkkür tərzinə malik olmaları barədə fikir söyləməyə imkan verir. Eyni mahiyyət daşıyan fikirləri N.Tusi yaradıcılığında da izləmək mümkündür.

XIII əsrin tanınmış mütəfəkkir alimi, görkəmli şəxsiyyəti və dövlət xadimi olan Nəsirəddin Tusi özünün məşhur “Əxlaqi-Nasiri” əsərində deyilən məsələ ilə əlaqədar yazır ki, “bakirə bakirə olmayandan daha yaxşıdır: ərin tərbiyəsini qəbul etməyə, onun xasiyyətinə uyğunlaşmağa, qayda-qanuna tabe olmağa daha çox təmayül edər, bunlarla yanaşı, özü gözəl, əsli nəcib, ailəsi dövlətli isə, bütün məziyyətlər bir yerə toplanmış olar, üstünə əlavəyə heç bir ehtiyac qalmaz. Bu xüsusiyyətlərin bəzisi olmasa da, ağıl iffət (ismət) və həya mütləq vacibdir. Yerdə qalan üç xüsusiyyəti - gözəllik, sərvət, əsil-nəsəbi o birilərindən üstün tutmaq, din və dünya işlərinə xələl gətirib fəlakət və həlakətə səbəb ola bilər”.

Göründüyü kimi, N.Tusi burada gözəlliyi, sərvəti və əsil-nəsəbliliyi başqa keyfiyyətlərdən üstün tutmağı vacib saymır. Çünki bunlar, doğrudan da, qalıcı şeylər deyildir. Ailəyə daxil olunacaq qızın seçilib bəyənilməsi məsələsində N.Tusinin verdiyi bu məsləhətləri təqdirəlayiqdir. Göründüyü kimi, müəllif burada toy mərasimindən əvvəl icra olunan qızın bəyənilməsi kimi el adətinə işarə etmişdir. Maraqlı cəhət budur ki, “Əxlaqi-Nasiri” əsərində bu göstərilənlər orta əsrlərdə qızın seçilməsi məsələsinə xüsusi əhəmiyyət verildiyinə müəllif tərəfindən diqqətin ayrılmasıdır. N.Tusinin bu əsərində belə bir fikir də vardır ki, o qızlardan söhbət açarkən, deyir ki, həddi-büluğa çatmışları babına ərə vermək lazımdır. Bu, çox dəyərli fikirdir. Belə ki, xalq arasında da yayılmış məsəl vardır ki, taylı tayını tapmasa, günü ahvayla keçər. Babı dedikdə, görünür ki, müəllif, ilk növbədə, ailə səviyyəsi və sosial durumu uyğun gələn, el arasında müəyyən hörmət sahibi olan, əsilli-nəsilli ailə üzvünü nəzərdə tutmuşdur. Ona görə də, hərə öz babını tapmağa üstünlük verib. Güman edə bilərik ki, N.Tusi bab dedikdə, həm də yaş məsələsindəki uyğunluğa da toxunmaq istəmişdir. Həddi-büluğa çatmış qızlar haqqında el arasında deyirlər ki, “qızlar bulağından su içib”. Bu, o deməkdir ki, artıq qızlar ərgənlik yaşına çatmışlar. Bu xüsusda da, məhz belə atalar sözləri yaranmışdır: Ailənin səadəti yüz ölçüb, bir biçməkdədir. Ailədə yanılmaq yamanlıq gətirər. Ailənin üzüağlığı namusdur. Anası halal olanın balası da qanan olar. Qızın isməti - atanın dövləti! El-obada gözəlliyi dillərə düşən qızlar haqqında deyirlər ki, “qızılquş əldə gəzər, gözəl qız dildə”. Bundan əlavə, “anasına bax, qızını al, qırağına bax, bezini al” el sözü dillər əzbəri olmuşdur.

Ən uğurlu ailə səmimi qarşılıqlı məhəbbət və eşq əsasında qurulmuş ailədir. Görkəmli Azərbaycan şairləri buna görə də qarşılıqlı sevgiyə poemalar həsr etmişlər.

Qızbayənmə və elçilik adətləri öz əksini dastanlarımızda da tapmışdır. Şirin Bünyadova yazır: “Məşhur “Kitabi Dədə-Qorqud” dastanında da qızbəyənmə ənənəsi göstərilir. Belə ki, dastanda qarşılıqlı bəyənilib, xoşlanmaq məsələsi Beyrəklə Banıçiçək arasında münasibətdə öz əksini tapmışdır. Ümumiyyətlə, qızbəyənmə və elçilik adəti ilə bağlı motivlər digər dastanlarda da mövcuddur. Bu xüsusda Azərbaycanın məhəbbət dastanlarını etnoqrafik mənbə kimi tədqiq edən Vüsalə Veysəlovanın kitabında öz əksini tapan məlumatlar da maraq doğurur. Xüsusən də, nağıllarımızda və dastanlarımızda qızla oğlanın bir-birini görüb “bir könüldən min könülə aşiq olması”, yuxuda qızla oğlanın butasının verilməsi halları əks etdirilir. Bu da, onu deməyə əsas verir ki, görüb qarşılıqlı bəyənilmə halları orta əsrlərdə də mövcud idi. Bundan əlavə, keçmişdə belə bir adət olub ki, qız bəyəndiyi oğlana öz qırmızı rəngli baş örtüyünü verirdisə, bu, birbaşa razılıq əlaməti kimi qəbul olunurdu. Elçilər bu yaylığı elçilik zamanı qız evinə göstərməklə, onun əvvəlcədən razı olduğunu valideynlərinə eyham edirdilər. Yaylığın bəyənilən oğlana qız tərəfindən verilməsi başının ona bağlanmasına, el içində adının onunla bərabər çəkilməsinə, ona mənsub olub nikahını qəbul etməsinə razılıq əlamətidir.”

Azərbaycan xalq dastanlarında yuxuda buta verilməsi geniş əks olunmuş bir məsələdir. Suli Fəqih “düş içində əhdlərin bərgitdilər” deməklə, yuxuda buta verilərək, əhd olunduğunu söyləyir. Ümumən buta bir naxış növü kimi də müxtəlif məna çalarlarına (sevgili buta, küsülü buta, qoşa buta və s.) malik olmaqla, Azərbaycan tətbiqi sənət nümunələrində görünməkdədir. Bu buta, nəinki yuxularda, eyni zamanda, təfəkkürün məhsulu kimi, məişətdə müəyyən yer almasında da özünü göstərir. Türk dillərində but sevgili anlamı verir. “Avesta”da sevgili sözü “butay” kəlməsi ilə əlaqədardır. Q.Qeybullayev IV əsr müəllifi Tanaisə əsaslanaraq göstərir ki, yuxuda buta verilməsi əqidəsi qədim türk tayfaları olan saklarda da vardı. Yuxu insanların tam aydınlaşdıra bilmədiyi qeyri-adi görünən bir təzahürdür. Ona görə də, burada insana verilən buta ilahi qüvvə tərəfindən təqdim olunan bir ömürlük bağlılıq rəmzi kimi qiymətləndirilə bilər. Təsadüfi deyildir ki, Azərbaycan dastanlarında butasının ardınca uzun yol qət edərək, uzaq məsafədə yaşayan sevgilisini axtarmağa gedən qəhrəmanlar təsvir olunur. Belə qəhrəmanlar min bir əzaba qatlaşaraq butasına qovuşur. Bəzən buta kəlməsini Budda ilə əlaqələndirənlər də olur. Butanı Budda ilə əlaqələndirmək elmi və dini nöqteyi-nəzərdən yanlış fərziyədir və heç bir məntiqi əsasa söykənmir. Çünki Budda ilahi sayılan qüvvədir, o özü nələrisə etməyə qadir müqəddəs varlıq sayılır, onu götürüb kimə isə yuxuda vermək dini baxımdan da qəbul edilə bilməz.

XIII əsrin müəllifi bəlli olmayan “Dastani-Əhməd Hərami” poemasında toya qədərki müxtəlif adət və ənənələr öz geniş əksini tapmışdır. Bunlardan biri də elçilikdən əvvəl qızbəyənmə adətidir. Bu işdə ən çox məsuliyyətin yenə də ananın üzərinə düşdüyü işıqlandırılır. Belə ki, əsərdə ananın bəyəndiyi qızı öz oğluna kəbin etmək istəyi təsvir edilir. Yəni əvvəlcə ana qızı “gözaltı” edir.

Beləliklə, toy mərasiminə qədər icra olunan adətlərdən qızbəyənmə ilkin, əsas adətlərdən hesab olunur, ailənin gələcək, yeni üzvü olan gəlin bəyənilir. Bu zaman ya onu valideyn bəyənir, ya gələcək ər olan oğlan, ya iki dost və ya qohum arasında sövdələşməyə əsaslanan “deyikli” adəti olur. Ümumiyyətlə isə, ən ideal ailə qarşılıqlı məhəbbətə əsaslanan ailə hesab olunur.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

**Son səhifə** **15 noyabr**

## Şəkərli diabet və pəhriz

Şəkərli diabet diaqnozu qoyulandan sonra həkim xəstəliyin müalicə taktikasını müəyyən edir. Diabet xəstəlik deyil, onu həyat tərzinə çevirmək üçün düzgün qidalanma və fiziki fəallıq əsas şərtlərdən biri sayılır. Sağlam qidanın əsas prinsipi onun sadə və yüngül olmasıdır. Səhər, günorta və axşam qəbul edilən qida 50 faizi tərəvəz, qalan 50 faizi digər karbohidratlar, yarısı isə zülallardan ibarət olunmalıdır. Əsas tarazlığı pozmamaq şərtilə xəstə öz ağız dadına görə qidanı seçməlidir. Şəkərli diabet xəstələri üçün ayrıca qida hazırlamağa ehtiyac yoxdur, ailənin bütün üzvləri onun rasionuna uyğun qida qəbul edə bilər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər DİN-in A.Heydərov adına Respublika Hospitalının endokrinoloqu Sevinc Kazımovaya məxsusdur. O, diabet barədə danışarkən deyib: "Sağlam balanslaşdırılmış pəhriz və daim fiziki fəallıq çox böyük əhəmiyyət kəsb edərək diabetin gedişi, ağırlaşmaları, təzyiq və qanda xolesterinin miqdarını tənzimləməyə kömək edir. Nəticədə diabetin fəsadlarının, məsələn, infarkt, insult, böyrək çatışmazlığı, ayaqlarda qanqrena və görmə zəifləməsinin əmələgəlmə ehtimalını azaltmaq olar. Şəkərli diabetin müalicəsində düzgün qida qəbulu və fiziki aktiv həyatdan sonra qanda şəkərin miqdarını gündəlik təyin etməklə dərman preparatı qəbul etməmək barədə qərarı yalnız həkim verə bilər.

Diabetli xəstənin qəbul etdiyi qidanın tərkibi barədə bilməsi çox vacibdir. Qəbul edilən qidada az da olsa müxtəlif yağlar olmalıdır. Bunlar yağda həll olan vitaminlərin sorulması və xolesterin mübadiləsi üçün çox mühüm şərtdir. Yağlar karbohidratlardan iki dəfə çox kaloriyə malik olduğu kimi, orqanizmdə şəkərin miqdarına da fərqli təsir göstərir".

Həkim-endokrinoloqun dediyinə görə, boy artımı və orqanizmin qurulması üçün zülallar vacibdir. Ət, balıq və quş əti zülallarla zəngindir. Diabet ürək xəstələri riskini artırdığına görə qəbul edilən qidada yağın miqdarına nəzarət etmək son dərəcə vacibdir. Karbohidratlarla zəngin olan qida məhsulları bir neçə qrupa bölünür: birinci qrupa nişasta tərkibli un məhsulları, ikinci qrupa meyvə və giləmeyvələr, üçüncü qrupa tərəvəz, paxlalılar və qoz, dördüncü qrupa süd və süd məhsulları aiddir".

Diabet xəstələrinin menyusu barədə danışan endokrinoloq daha sonra deyib: "10-12 qram karbohidrat 1 çörək vahidi hesab olunur. 1 çörək vahidi karbohidrat qəbul olunanda qanda şəkərin miqdarı 1,7-2 mmol/l yüksəlir. Mənimsənilməsinə görə karbohidratlar tez mənimsənilən və zəif mənimsənilən olur. Şəkərli diabet xəstələri onları ayırmağı bacarmalıdır. Tez mənimsənilən karbohidratlar - şəkər tozu, qənd, dondurma, şokolad, bal, kvas, şirə və kompotlardır. Gec mənimsənilən karbohidratlara paxlalar, çovdar unundan hazırlanan çörək, kartof, sıyıq və meyvələr aiddir. Qida rasionunda zəif mənimsənilən karbohidratlara üstünlük verilməlidir, onlar mədə-bağırsaqdan zəif sorularaq toxumalar tərəfindən yavaş-yavaş mənimsənilir və bunun nəticəsində qanda şəkərin səviyyəsi cüzi qalxır. Sorulmanı bir qədər ləngitmək üçün hər dəfə qida qəbulunda tərəvəzlərdən istifadə etmək lazımdır. Tərəvəzlər həm doyma hissi verir, həm də bağırsaqları yaxşı işləməyə məcbur edərək şlakları orqanizmdən uzaqlaşdırır.

Qəbul edilən qidada lazımi qədər karbohidrat olmalıdır, onların az qəbul edilməsi qanda qlükoza səviyyəsinin düşməsi ilə nəticələnir, kompensator olaraq qaraciyər qlükoneogenez yolu ilə qlükoza sintez etməyə başlayır və qanda şəkərin miqdarı artır. Xəstənin qida rasionunda karbohidratın miqdarı normaya uyğun olmalıdır. Əgər həmin göstəricini şəkər vahidinə çevirsək, onda gündəlik tələbat minimum 10-12 vahid olmalıdır, orta və yüngül fiziki aktivlik zamanı isə 12-15 vahidə qədər artırılmalıdır. Qəbul edilən karbohidratların orqanizmin toxumaları tərəfindən səmərəli istifadə olunması üçün gün ərzində bərabər paylanılmalıdır. Bir dəfəyə çoxlu karbohidrat qəbul edəndə toxumalarda aclıq hissi yaranır, qaraciyər ehtiyat saxladığı qlükozanı qana ötürməyə başlayır və nəticədə qanda şəkərin səviyyəsi yüksəlir. Sağlam qida qəbuluna riayət etməyəndə ən bahalı dərman da qanda şəkərin miqdarını azaltmağa kömək etmir".

## ELAN

Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi ev 4, mənzil 28 ünvanında yaşayan Rzayeva Nahidə Rəhman qızının adına "ASAN xidmət" tərəfindən verilmiş evin çıxarışı itdiyi üçün etibrsız sayılır.

***

"Azərişıq" tərəfindən Səbail rayon İstismarı şöbəsinin elektrik montyoru Məmmədov Abbas Məmməd oğlunun adına verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya ixtisası üzrə I kurs tələbəsi Qasımova Zümrüd Ramil qızının adına verilmiş tələbə bileti itdyiyi üçün etibarsız sayılır.

## Azərbaycanın idmançıları batut gimnastikası üzrə 32-ci dünya çempionatının finalınadək irəliləyiblər




Bolqarıstanın paytaxtı Sofiyada keçirilən batut gimnastikası üzrə dünya çempionatı başa çatıb. Otuz dörd ölkədən iştirakçıların qatıldıqları çempionatda Azərbaycanı Svetlana Makştaryova, Veronika Zemlyanaya, Oleq Piunov, İlya Qrişunin və Ruslan Ağamirov təmsil ediblər.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, ölkəmizdə 2013-cü ildən inkişaf etdirilən bu idman növü üzrə gimnastlarımız artıq dördüncü dəfədir dünya çempionatında güclərini sınayıblar. Ən güclü gimnastların qatıldıqları gərgin idman mübarizəsində Svetlana Makştaryova-Veronika Zemlyanaya cütlüyü sinxron proqramda ilkə imza ataraq finala qədər irəliləyiblər. Gimnastlarımız həlledici mərhələdə mübarizəni yeddinci pillədə başa vurublar. Svetlana Makştaryova, həmçinin fərdi proqram üzrə də 60 ölkənin iştirakçıları arasından yarımfinala yüksəlib və bu mərhələdə 17-ci olub. Bu turnir ölkəmiz üçün daha bir hadisə ilə əlamətdar olub. Belə ki, məhz batut gimnastikası üzrə dünya çempionatında ilk dəfə olaraq Azərbaycan təmsilçisi Kamil Quliyev yarışlarda hakimlik edib.

## Samboçumuz dünya çempionatında bürünc medal qazanıb

WORLD SAMBO CHAMPIONSHIPS SOCHI 2017

Soçidə sambo üzrə dünya çempionatına yekun vurulub. AZƏRTAC xəbər verir ki, mundialda Azərbaycan millisi 1 medal qazanıb. Çempionatda 57 kiloqram çəki dərəcəsində mübarizə aparan Fuad Məmmədov bürünc medala sahib olub. Dünya çempionatında ölkəmizi hakim qismində Cabir İsmayılov təmsil edib. Millimiz Soçidə Azərbaycan Sambo Federasiyasının prezidenti Ceyhun Məmmədovun rəhbərliyi altında mübarizə aparıb.

## Ronaldu mövsümün sonunda "Real Madrid"dən ayrılacaq




"Real Madrid" futbol klubunun hücumçusu Kriştianu Ronaldu cari mövsümün sonunda komandanı tərk edəcək. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, forvard qərarını klubun prezidenti Florentino Peresə də bildirib. Ancaq klub rəhbərliyi portuqaliyalı futbolçunun gələn ilin iyununda komandadan ayrılmasına razı deyil.

Forvard Madrid klubunun ona təklif etdiyi yeni müqavilədən də imtina edib. Ronaldu "Real Madrid"in PSJ-dən Kiliana Mbappe və digər məşhur hücumları heyətinə qatmağa cəhd etməsini, özünə hörmətsizlik kimi qəbul edir.



## İtaliya millisi 60 ildən sonra dünya çempionatından kənarda qaldı!

Futbol üzrə 2018-ci il dünya çempionatının Avropa zonası üzrə "play-off" mərhələsinin daha bir cavab görüşü keçirilib. İtaliya millisi İsveçi qəbul edib.

Milanın "San-Siro" stadionunda təşkil olunan qarşılaşmanı baş hakim ispaniyalı Antonio Matö Lahoz idarə edib. Bu komandalar arasında 3 gün əvvəl keçirilmiş ilk görüşdə İsveç yığması 1:0 hesabı ilə qalib gəlib. Ona görə də İtaliya yığması mundiala vəsiqə qazanmaq üçün ən azı 2 top fərqi ilə qalib gəlməli idi. Lakin meydan sahiblərinin 90 dəqiqə ərzində etdiyi cəhdlər heç bir fayda verməyib. Nəticədə skandinaviyalılar qolsuz bərabərliyə nail olaraq adlarını mundiala gedəcək komandaların sırasına yazdırıblar.

Dördqat dünya çempionu olan appeninlilər isə 60 ildən sonra mundiala həsrət qalıblar. Sonuncu dəfə 1958-ci ildə bu aqibətlə üzləşən İtaliya yığması yenidən azarkeşlərini kədərə qərq edib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**